Yeni Azərbaycan Partiyası qələbələr partiyasıdır
12

SƏS
№ 211 (6411) 19 noyabr 2021-ci il. Qiymәti 40 qәpik

# İlham Əliyev: “Yaxın vaxtlarda biz hamımız dirçəldilmiş şəhərləri görəcəyik”



2

# Bir günlük müharibə: Bakı İrəvana hansı dərsləri verdi?



Ermənistan bir daha sübut etdi ki, ona etimad etmək olmaz və bu amil özünü noyabrın 16-da təsdiq etdi

5

## Ərdoğanla İsrail Prezidenti arasında telefon danışığı olub



9

Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanla İsrail Prezidenti İshak Hersok arasında telefon danışığı olub. SİA “Habetürk”ə istinadən xəbər verir ki, dövlət başçıları ikitərəfli əlaqələri müzakirə ediblər. Həmçinin İsrail Prezidenti Türkiyədə R.T.Ərdoğanın...

Alman alimləri COVİD-19-la effektiv mübarizə aparan təbii giləmeyvənin adını elan ediblər. SİA Medicina.az-a istinadən xəbər verir ki, qara qaşarmudu və şirəsinin COVİD-19 virusunu orqanizmdə 97 faiz öldürdüyü məlum olub. Tədqiqatlar Ulma Molekulyar...



## Koronaya qarşı təbii qida tapıldı?

16



## Zəngəzur blokadaya alınıb - Paşinyan bütün şərtlərlə razılaşır!



Rusiyalı iş adamının keçmiş arvadı Londonda 10 milyon funt-sterlinq dəyərində olan evində ölü tapılıb. SİA-nın xarici mətbuata istinadən verdiyi...

3

## Məşhur iş adamının keçmiş həyat yoldaşı evində ölü tapılıb

## Düzgün ətir necə seçilməlidir: QİYMƏT, YOXSA KEYFİYYƏT?



8



## Xərçəng peyvəndilə bağlı ümidli xəbər

3

BioNTech” şirkətinin qurucularından olan professor Uğur Şahin inkişaf etdirdikləri xərçəng peyvəndilə...



## “Azərbaycanla növbəti qarşıdurma erməni dövlətçiliyinin varlığını sual altında qoyacaq”

14

“Ermənistanın son günlər Azərbaycanla sərhədlərində baş verən hadisələr göstərir ki, bu ölkənin bəlli məlum dairələri...

# İlham Əliyev:
## “Yaxın vaxtlarda biz hamımız dirçəldilmiş şəhərləri görəcəyik”



Azərbaycan Prezidenti İlham Əliyevin işğaldan azad edilmiş ərazilərə hər səfərləri zamanı vacib layihələrə start verilməsi və əhəmiyyətli layihələrin reallaşması işğaldan azad olunmuş ərazilərdə artıq böyük inkişafın təməllərinin qoyulması ilə yanaşı, həm də uğurlu inteqrasiyaya nail olmaqla, regional və beynəlxalq səviyyələrdə inkişafı təmin etməkdir. Prezident İlham Əliyev həmişə çıxışlarında ”mənim sözüm imzam qədər qüvvətlidir”-deyir. İşğaldan azad olunmuş torpaqlara səfərləri və qısa bir zaman kəsiyində görülən uğurlu işlər və həyata keçirilən layihələr məhz Qalib Liderin sözünün və əməlinin vəhdətinin nümayişidir. Prezident İlham Əliyev bu günə qədər verdiyi bütün vədləri yerinə yetirib. Çünki sözü imzası qədər qüvvətli olan liderdir! Artıq tariximizin qürur doğuran səhifələri yazılır. İndi Şuşa da azaddır, Laçın, Kəlbəcər də, Ağdam da və digər işğal olunmuş rayonlar da. Hazırda işğaldan azad olunmuş torpaqlarımız bərpa olunur, yenidən qurulur, artıq Xarı bülbül boynunu bükməyib. Qarabağın Azərbaycana məxsusluğunu mədəniyyət müstəvisində bəyan edən ”Xarıbülbül” festivalı bərpa olunub.

”Şuşasız Qarabağ, Qarabağsız isə, ümumiyyətlə, Azərbaycan yoxdur” deyən Ümummilli Lider Heydər Əliyevin vəsiyyətinə uyğun hakimiyyətdə olduğu 18 il ərzində, hər gün və hər saat Şuşa başda olmaqla işğalda olan bütün əraziləri azad etmək uğrunda mübarizə aparan Prezident İlham Əliyev buna nail oldu. Bütün müharibələrdə olduğu kimi, İkinci Qarabağ müharibəsinin taleyini də strateji bir hədəf həll edirdi ki, bu da Şuşa idi. Məhz buna görə 44 günlük müharibədə çox böyük uzaqgörənlik nümayiş etdirən müzəffər Ali Baş Komandan İlham Əliyev döyüşən ordunun böyük hissəsini Şuşa istiqamətində səfərbər etdi. Şuşa qələbəsindən sonra azğın düşmən ağ bayraq qaldıraraq təslim oldu, kapitulyasiya aktını imzalamaq məcburiyyətində qaldı, hələ azad olunmamış üç rayonla yanaşı, bir neçə kəndimizi boşaltmaq öhdəliyini üzərinə götürdü və Zəngəzur dəhlizinin açılmasına razılıq verməyə məcbur edildi.







Bu yerdə 11 il öncə dövlət başçımızın dediyi sözü - 2010-cu noyabrın 1-də Bakıda möhtəşəm Dövlət Bayrağı Meydanı açılışında çıxışı zamanı Prezidenti İlham Əliyev demişdi ki, gün gələcək və Azərbaycan bayrağı işğal edilmiş torpaqlarda, o cümlədən Şuşada qaldırılacaq. 2021-ci ilin yanvarın 14-ü həmin vəd yerinə yetirildi. Azərbaycan Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyev Şuşa şəhərində üçrəngli bayrağımızı qaldırdı. Bu gün Azərbaycan ancaq öz gücü hesabına öz torpaqlarını azad etməli idi və bunu etdi. Bunu dövlət başçımızın dediyi kimi: ”Biz bu müharibəyə hazırlaşırdıq və bunu gizlətmirdik. Düşmən qabağımızda diz çökməyə, kapitulyasiya aktına imza atmağa məcbur olmuşdur... Alçaldıcı kapitulyasiya aktı tarixdə əbədi qalacaq”.

Bu gün dəmir yumruğun gücü ilə Qarabağ Azərbaycandır - dirçəliş yolundadır. İlk öncə bu gün işğaldan azad olunan ərazilərin minalardan təmizlənməsi əsas məsələlər sırasındadır. Doğrudur, Ermənistan Ağdam, Füzuli və Zəngilan rayonlarında basdırdığı tank və piyada əleyhinə minaya dair xəritələrini Azərbaycana təhvil verib. Bu, Azərbaycan Prezidentinin həyata keçirdiyi uzaqgörən siyasətinin məntiqi nəticəsi idi. Bu, həm on minlərlə vətəndaşın, o cümlədən, minatəmizləyənlərin həyatının təhlükədən xilası deməkdir.

Bir sözlə, Prezident İlham Əliyev əməli ilə bir daha göstərir ki, bu sözləri heç də söz xatirinə söyləməyib. Prezident kimi Azərbaycanı tarixinin ən qüdrətli dövlətinə çevirən Azərbaycan Prezidenti bu gün başladığı işlərlə Qarabağın əvvəlki şöhrətini özünə qaytaracağını dünyaya nümayiş etdirir. Həyata keçirilən bütün proseslər təsdiq edir ki, biz 44 gün ərzində möhtəşəm qələbə qazandığımız kimi, Zəfərin davamı olan quruculuq işlərini də uğurla başa çatdıracağıq.

### Hazırda ən böyük rəqibimiz zamandır

Bu gün 44 günlük müharibədə Ali Baş Komandanın rəhbərliyi altında necə uğurlu taktika seçilmişdisə, müharibədən sonra da cənab Prezidentin rəhbərliyi altında bir o qədər uğurlu qayıdış taktikası seçilib. Yeni qurulacaq Qarabağda artıq ağıllı kənd, ağıllı şəhər layihələri gündəmdədir. Cənab Prezident birinci olaraq, infrastrukturların qurulmasından başladı. Yəni, bir növ Qarabağı bütün dünyaya təqdim etmək məsələsi gündəmə gəldi. Artıq qısa müddət ərzində Azərbaycanın böyük bir uğuru olan Füzuli hava limanı istifadəyə verildi. Qarabağın mərkəzində belə bir hava limanının tikilməsi Azərbaycanın hərbi-iqtisadi qüvvəsini göstərir. Artıq Zəngilanda hava limanı tikintisinə başlanıb. Laçın ərazisində də belə bir addım atılacaq. Amma əsas burada infrastrukturun yaradılması idi. Cənab Prezident bu işləri mərhələli şəkildə həyata keçirdi.

”Qarabağ məsələsini həll edəcəyik. Zaman lazımdır, vaxt lazımdır. Azərbaycan torpaqları heç vaxt onun əlindən gedə bilməz. Bizim işğal olunmuş torpaqlarımız mütləq qaytarılacaqdır”, - deyən Ulu Öndər bir gün yurdumuzun düşmən əsarətindən azad olunacağına əmin idi. O, həm də inanırdı ki, memarı olduğu Azərbaycan Prezident İlham Əliyevin rəhbərliyi dövründə daha da güclənəcək, beynəlxalq aləmdə mövqeyini möhkəmləndirəcək və qüdrətli ordusu ilə tarixi ədaləti bərpa edəcək.

Bəli, bu gün artıq Prezident İlham Əliyevin rəhbərliyi və qətiyyəti ilə işğaldan azad olunmuş ərazilərin bərpası istiqamətində həyata keçirilən işlər və tədbirlər, atılan addımlar Qarabağın cənnətə çevrilməsinə hədəflənmişdir. Ancaq mənfur düşmən unutmamalıdır ki, necə ki, Azərbaycan Prezidenti cənab İlham Əliyev illərlə işğal siyasətinə son qoymaq üçün qətiyyət, iradə və prinsipiallıq nümayiş etdirdisə, indi də atdığı düşünülmüş və sistematik addımlar Qarabağın qısa zaman kəsiyində dirçəldilməsinə istiqamətlənib. Dövlət başçımızın rəhbərliyi altında bu missiyanın da öhdəsindən gələcəyik, ərazilər minalardan təmizlənəcək və insanlar öz el-obalarına geri dönəcəklər.

Dövlət başçımızın dediyi kimi: ”Biz işğaldan azad edilmiş yerlərdə şəhərlər quracağıq, həyatı qaytaracağıq, bütün dağılmış yerləri bərpa edəcəyik”. Çünki Qarabağ Azərbaycanındır! Qarabağ Azərbaycandır!

***RƏFİQƏ KAMALQIZI***



# Baş nazir: “Azərbaycan Dünya Bankı ilə əməkdaşlıqdan məmnundur”

**Azərbaycan Respublikasının Baş naziri Əli Əsədov noyabrın 18-də Dünya Bankının Avropa və Mərkəzi Asiya regionu üzrə vitse-prezidenti Anna Byerdenin rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.**

Nazirlər Kabinetindən AZƏRTAC-a bildiriblər ki, görüşdə gələn il Azərbaycan ilə Dünya Bankı arasında tərəfdaşlığın qurulmasının 30 illiyinin qeyd olunacağı vurğulanıb, ötən müddət ərzində müxtəlif istiqamətlərdə birgə uğurlu layihələrin həyata keçirildiyi bildirilib.

Baş nazir Ə.Əsədov Azərbaycanın Dünya Bankı ilə əməkdaşlıqdan məmnun olduğunu və əməkdaşlığın gücləndirilməsinin vacibliyini qeyd edib.

Anna Byerden bildirib ki, ötən illər ərzində Azərbaycan aşağıgəlirli ölkədən yüksəkgəlirli donor ölkəyə çevrilib. O, habelə Azərbaycanda peyvəndlənmənin yaxşı səviyyəyə malik olduğunu qeyd edərək, bu sahədə fəaliyyətin uğurlu olduğunu deyib. A.Byerden 2021-ci ildə Azərbaycan iqtisadiyyatında artımın müşahidə olunmasının da yaxşı göstərici olduğunu vurğulayıb.

Görüşdə Dünya Bankının hazırlanmaqda olan Azərbaycana dair yeni Ölkə Tərəfdaşlıq Çərçivə sənədi, Bankın Azərbaycanın ”2022-2026-cı illərə dair sosial-iqtisadi inkişaf Strategiyası”nın həyata keçirilməsində və işğaldan azad edilmiş ərazilərin bərpasında iştirakı, Dünya Bankının və onun strukturuna daxil olan Beynəlxalq Maliyyə Korporasiyasının Azərbaycanın özəl sektoru ilə əməkdaşlığının genişləndirilməsi, həmçinin Bank ilə ölkəmiz arasında kənd təsərrüfatı, rəqəmsal inkişaf, bərpaolunan enerji mənbələri və bir çox digər sahələrdə tərəfdaşlığın perspektivləri ilə bağlı məsələlər müzakirə olunub.

Sonda Azərbaycan Respublikasında ofislərin qurulması və fəaliyyətinə dair Azərbaycan Respublikası və Dünya Bankı Qrupu Təşkilatları arasında yeni Saziş imzalanıb. Sazişi Azərbaycan Respublikasının maliyyə naziri Samir Şərifov və Dünya Bankının Avropa və Mərkəzi Asiya regionu üzrə vitse-prezidenti Anna Byerde imzalayıblar.

# Şamil Ayrım: Azərbaycan Prezidentinin “Türk Dünyasının Ali Ordeni” ilə təltif olunması türk dünyasının birlik və həmrəylik rəmzidir



Prezident İlham Əliyevin ”Türk Dünyasının Ali Ordeni” ilə təltif olunması bütövlükdə Azərbaycan xalqının mübarizliyinə, cəsarətinə, müzəffər Ordusunun Qələbəsinə verilən yüksək qiymətdir. Bu, eyni zamanda, türk dünyasının birlik və həmrəylik rəmzidir. Ümumiyyətlə, bu ali mükafatın təsis edilməsi və onun ilk nüsxəsinin Qarabağ Zəfərinə həsr edilməsi tarixi hadisədir. Tarixdə ilk dəfədir ki, türk dünyası birlikdə orden təsis edir və onun da ilk sahibi Prezident İlham Əliyevdir. Bu tarixi hadisə bir daha göstərir ki, keçmiş Qarabağ münaqişəsi yalnız Azərbaycanı deyil, bütün türk dünyasını narahat edən problem olub.

AZƏRTAC xəbər verir ki, bu fikirləri Türkiyə-Azərbaycan parlamentlərarası dostluq qrupunun sədri Şamil Ayrım ifadə edib.

Noyabrın 12-də İstanbulda keçirilmiş Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının VIII Zirvə Görüşünün nəticələrini bütün parametrlər üzrə tarixi hadisə, sülh və inkişaf çağırışı, yeni formatlı birlik və həmrəylik platforması kimi dəyərləndirən Şamil Ayrım deyib: ”Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə yenilməz Azərbaycan Ordusunun qazandığı möhtəşəm Qələbə bir tərəfdən ölkənin ərazi bütövlüyünü bərpa etdisə, digər tərəfdən bütün dünyaya Azərbaycan xalqının nəyə qadir olduğunu göstərdi. Əlamətdar haldır ki, bu tarixi gerçəklik bütün türk dövlətləri tərəfindən yüksək qiymətləndirilir və regionda yaranmış yeni inkişaf imkanı kimi hər kəsi Qarabağ Zəfərinin işığında birləşdirir”.

Ermənistanın son günlər dövlət sərhədində Azərbaycana qarşı təxribatlara kəskin etirazını bildirən Türkiyə parlamentinin deputatı vurğulayıb: ”Türkiyə başda olmaqla, bütün türk dünyası Azərbaycanın yanındadır. Beynəlxalq hüquq və ədalət Azərbaycanın ərazi bütövlüyünü təsdiq edir. Ermənistan istəsə də, istəməsə də bu gerçəkliyi qəbul edib Azərbaycanın təklif etdiyi, sülh, əməkdaşlıq və inkişaf yolunu tutmalıdır”.

# Azərbaycan Avropa Konvensiyasının 16 saylı Protokolunu imzalayıb



Azərbaycan Avropa İnsan hüquqlarının və əsas azadlıqların müdafiəsi haqqında Konvensiyanın 16 saylı Protokolunu imzalayıb.

AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikası Prezidentinin müvafiq Sərəncamı ilə verilmiş səlahiyyət əsasında ölkəmizin Avropa Şurası yanında daimi nümayəndəsi Fəxrəddin İsmayılov Strasburqda Avropa Şurasının Baş katibi Mariya Peyçinoviç-Buriçin iştirakı ilə İnsan hüquqlarının və əsas azadlıqların müdafiəsi haqqında Konvensiyanın 16 saylı Protokolunu ölkəmiz adından imzalayıb.

Milli qanunvericiliyin və Protokolun müvafiq müddəalarının tələblərinə uyğun olaraq, Milli Məclis tərəfindən təsdiq edildikdən sonra ölkəmizə münasibətdə qüvvəyə minəcək 16 saylı Protokol Azərbaycanın ən yuxarı instansiya məhkəmələrinə Konvensiyada və onun protokollarında müəyyən olunan hüquqların və azadlıqların şərhi və ya tətbiqi ilə bağlı prinsip xarakterli məsələlərlə əlaqədar məsləhət rəylərinin verilməsinə dair İnsan Hüquqları üzrə Avropa Məhkəməsinə müraciət etmək imkanı yaradacaq.

Mərasimdən sonra daimi nümayəndə ilə Baş katib arasında keçirilən görüşdə 16 saylı Protokolun imzalanması Azərbaycanın Konvensiya sisteminə sadiqliyinin göstəricisi olan vacib hadisə kimi qiymətləndirilib və bu Protokolun yaradacağı məsləhət almaq imkanının ölkəmizdə insan hüquqlarının müdafiəsinə əlavə töhfə verəcəyi diqqətə çatdırılıb.

Görüşdə qarşılıqlı maraq kəsb edən məsələlər barədə fikir mübadiləsi aparılıb.

# Misirli jurnalist: Ermənistanın hərbi təxribatlarının qarşısı alınmalıdır

**Misirin ”Əl Diplomasi” portalının baş redaktoru Əşrəf Əbu Urafənin bu nəşrdə ”Ermənistan rəhbərliyinin daha bir hərbi avantürası nə ilə nəticələnək?” sərlövhəli məqaləsi yayımlanıb.**




AZƏRTAC xəbər verir ki, məqalədə Azərbaycanın 44 günlük Vətən müharibəsində Qələbəsinin ildönümünün qeyd olunduğu vaxtda Ermənistan rəhbərliyinin təxribatları davam etdirdiyi diqqətə çatdırılır. Müəllif vurğulayır ki, məqsədyönlü şəkildə törədilən və regionda sabitliyə böyük təhlükə yaradan bu təxribatların qarşısı alınmalıdır: ”Ermənistanın keçmiş müdafiə nazirinin Azərbaycan ərazisinə icazəsiz səfəri bir avantüra idi. Bunun ardınca növbəti hərbi təxribat başladı və Ermənistan silahlı qüvvələri Laçın və Kəlbəcər rayonlarında Azərbaycan Ordusunun mövqelərini atəşə tutdular. Bütün bunlar göstərir ki, Ermənistan regionda sülhün və sabitliyin bərqərar olmasında maraqlı deyil və sərhədlərin delimitasiyasını istəmir. Vurğulamaq istəyirəm ki, erməni qoşunlarının son hərbi təxribatı, əslində, onların öz vəziyyətini daha da ağırlaşdırıb. Bu gün sərhəddə davam edən gərginliyə görə bütün məsuliyyət Ermənistanın hərbi-siyasi rəhbərliyinin üzərinə düşür”.

”Əl Diplomasi” portalı noyabrın 16-da Ermənistanın hərbi təxribatı ilə bağlı Azərbaycan Müdafiə Nazirliyinin məlumatlarını da Misir ictimaiyyətinə çatdırıb.

# Məşhur iş adamının keçmiş həyat yoldaşı evində ölü tapılıb



Rusiyalı iş adamının keçmiş arvadı Londonda 10 milyon funt-sterlinq dəyərində olan evində ölü tapılıb. SİA-nın xarici mətbuata istinadən verdiyi məlumata görə, İqorun qanlı keçmişi şübhələrə səbəb olub. Dostları cümə günü 52 yaşlı İrina İzmestiyevanın cəsədini taparaq polisə zəng edib.

# Xərçəng peyvəndilə bağlı ümidli xəbər



BioNTech” şirkətinin qurucularından olan professor Uğur Şahin inkişaf etdirdikləri xərçəng peyvəndilə əlaqədar ümidli olduqlarını dilə gətirib. SİA bu barədə türk mətbuatına istinad edir. Xərçəng növlərinə qarşı laboratoriyada müsbət nəticələr əldə etdiklərini açıqlayan alim bu zamana qədər aparılan araşdırmalarda bir sıra xəstələrdə şişlərin kiçildiyini müşahidə etdiklərini söyləyib.

Doğru peyvənd kombinasiyası ilə qatı şişlərin də müalicə oluna biləcəyini deyən U.Şahin şişlərin yalnız kiçilməsini deyil, daha da kiçilmənin davamlı olmasını istədiklərini bildirib. Bundan başqa, alim müalicənin etibarlılığına diqqət çəkərək proseslərin həyəcanverici olduğunu söyləyib. Xərçəng müalicəsinə dair peyvəndin 3-4 il vaxt aparacağı bildirilir.

# Humanizm prinsipini şərtləndirən layihələr

**Azərbaycanda, eləcə də onun hüdudlarından kənarda genişmiqyaslı fəaliyyəti ilə tanınan və nüfuz qazanan Heydər Əliyev Fondu qabaqcıl və humanizm prinsipləri ilə böyük nüfuza sahibdir.**




Fondun fəaliyyəti dövründə həyata keçirilən genişmiqyaslı layihələr ictimai-mədəni, sosial həyatının yüksəldilməsi və inkişafı baxımından birmənalı olaraq çoxsaylı insanların həyat tərzində dönüş yaradıb. İnsanların həyat tərzində sağlam mühiti formalaşdırmaq, müasir dövrün tələblərinə və gələcəyin təminatı olan təhsilə, elmə böyük diqqət ayırmaq Fondun həyata keçirdiyi layihələr sırasında mühüm yer tutur. Bu sırada məktəb binalarının tikintisi, bərpa və yenidən qurulması, dərsliklərlə təchizatı Fondun ana xətt kimi fəaliyyətində davamlı olaraq həyata keçirilir. Heydər Əliyev Fondun prezidenti, YUNESKO və İSESKO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyevanın təşəbbüsü ilə reallaşan "Uşaq evlərinin və internat məktəblərinin inkişaf proqramı", "Yeniləşən Azərbaycana yeni məktəb", "Təhsilə dəstək" və "Məktəbəqədər təhsil müəssisələrinin inkişafı" proqramları təhsilə ayrılan diqqətdir. Fondun reallaşdırdığı proqramlar çərçivəsində Şamaxı rayonunda da müxtəlif illərdə yeni təhsil ocaqlarının tikintisi, təmiri və lazımi avadanlıqla təmin edilməsi üzrə bir sıra layihələr həyata keçirilib. Bu günlərdə Şamaxı rayonunda akademik Heydər Hüseynov adına Çarhan kənd tam orta məktəbinin yeni binasının açılışı görülən işlərin davamıdır. Məktəbin əvvəlki binası 1972-ci ildə inşa olunmuşdu. Orta təhsil müəssisəsi tədris üçün artıq yararsız vəziyyətə düşdüyündən Heydər Əliyev Fondunun təşəbbüsü ilə məktəb üçün yeni binanın tikilməsinə qərar verilib. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Birinci Xanım Mehriban Əliyevanın Şamaxıya səfəri zamanı məktəbin açılışı olub. 420 şagird yerlik məktəb binası 5 korpusdan ibarətdir. Burada sinif otaqları, fizika, kimya və biologiya laboratoriyaları, informatika, hərbi təlim, tibb, əmək təlimi otaqları, kitabxana, yeməkxana, akt və idman zalları, açıq idman meydançası var.







Qeyd edək ki, Heydər Əliyev Fondu elmin və təhsilin inkişafını daim diqqət mərkəzində saxlayır, bu sahədə dövlət tərəfindən görülən işlərə öz töhfəsini verir. Mehriban Əliyeva gənclərin hərtərəfli inkişafına diqqətlə yanaşaraq, uşaq və yeniyetmələrdə idmana maraq aşılamaq, onları sağlam ruhda tərbiyə etmək istiqamətində müxtəlif layihələr həyata keçirir. Onun təşəbbüsü ilə inşa olunan orta məktəb və məktəbəqədər müəssisələrdə idman zalları, futbol meydançaları, yeni salınan parklarda mini stadionlar, idman qurğuları ilə təchiz olunmuşdur.

Müasir dövrümüzdə təhsilə, elmə dövlət tərəfindən diqqət ayrıldığı zamanda Mehriban xanım Əliyeva "Təhsilə dəstək" layihəsi çərçivəsində tədrisin keyfiyyətinin yüksəldilməsinə öz töhfələrini verir. Bu proqramın adı onun mahiyyətini əks etdirir. Azərbaycanda baş verən yeniliklər təhsil sistemində də özünü göstərir. Heydər Əliyev Fondu təhsilə xüsusi önəm verərək, "Yeniləşən Azərbaycana yeni məktəb" Proqramı çərçivəsində ölkənin müxtəlif regionlarında məktəblərin yenidən qurulması, müasir avadanlıqla təmin olunması, kitabxanaların ədəbiyyatla zənginləşdirilməsi istiqamətində mühüm işlər görür. Fondun "Təhsilə dəstək" layihəsi isə birbaşa tədrisin keyfiyyətinə təsir göstərən problemlərin həllinə, təhsil ocaqlarının əyani vəsaitlə, şagirdlərin lazımi dərs ləvazimatı ilə təmin olunmasına kömək edir.



Azərbaycanın gənc nəsli biliyə, müasir texnologiyalara, elmə yiyələnməli, dünya təhsil sisteminə inteqrasiya olunmağı bacarmalıdır. Təbii ki, yetişən nəslin qarşısında belə tələblər qoyarkən, münasib şərait də yaratmaq əsas vəziifə kimi qarşıda dayanır. Reallaşan layihələrdə də məqsəd olaraq ölkəmizin hər bir gəncini daha bilikli, bacarıqlı, geniş dünyagörüşlü görməkdir.

***Nəzakət ƏLƏDDİNQIZI***

ANALİTİKA + AKTUAL

# Bir günlük müharibə:
## Bakı İrəvana hansı dərsləri verdi?

**Noyabrın 16-dan başlayaraq Laçından, Zəngəzurdan, Kəlbəcərdən erməni təxribatları barədə məlumatlar artmağa başladı. Əslində, bu təxribatlar bir neçə gün idi ki, səngimirdi və Azərbaycan ictimai rəyini bir sual düşündürürdü: düşmən yenidən başını qaldırmağa başlayırsa, onun başı nəyə görə yenidən və bu dəfə daha sərt şəkildə əzilmir, axı onun nəfəsi 44 günlük İkinci Qarabağ müharibəsində kəsilmişdi və s...**

Əslində, nəfəsi kəsilmiş düşmənə bir il vaxt verilmişdi ki, ağlını başına toplasın və imzalanan kapitulyasiya sənədindəki bəndlərin, şərtlərin həyata keçirilməsinə başlasın, amma düşmən nə etdi? Sözün əsl mənasında, qudurdu və elə sandı ki, dünya birliyi onun həyasız şıltaqlıqlarına haqq qazandıracaq, İrəvanın ”məzlum”, ”əzabkeş” hay-harayına səssiz qalmayacaq. Amma bu dəfə də yanıldı, özü də kökündən! Ermənistan məhz bu vasitələrlə bir daha sübut etdi ki, ona etimad etmək olmaz və bu amil özünü noyabrın 16-da təsdiq etdi.



Ermənistan bir daha sübut etdi ki, ona etimad etmək olmaz və bu amil özünü noyabrın 16-da təsdiq etdi

### Paşinyan növbəti dəfə ölkədaxili siyasi böhrana imza atmış oldu

Beləliklə, Ermənistan 2020-ci ilin Tovuz təxribatında olduğu kimi, bu dəfə Laçın istiqamətindəki dağlıq ərazidə strateji yüksəklikləri ələ keçirməyə cəhd göstərdi. Dağlıq ərazidə yerləşən həmin yer Ermənistanı Qarabağın yuxarı hissəsi ilə birləşdirir. Ancaq bu dəfə də düşmən burnundan o tərəfə keçə bilmədi və 2020-ci ilin iyulunda olduğu kimi Azərbaycan Ordusunun əks həmlələri nəticəsində öz mövqelərini itirdi. Həmin ərazinin coğrafi mövqeyini nəzərə alsaq deyə bilərik ki, sərhədin delimitasiya olunmamış bu hissəsində düşmən təxribatının baş verəcəyi gözlənilən idi. Amma düşmən bu dəfə də səhv nəticə çıxararaq yüngül və kiçik həcmli qələbə qazanacağı ehtimalında yanıldı.



Artıq noyabrın 16-dan başlayaraq erməni bölmələri Azərbaycana məxsus yüksəklikləri necə deyərlər, dabanlarına tüpürərək tərk edirdilər və söz yox ki, bütün bunlara görə onların ”meydan demokratiyaları”, hakimiyyətləri günahkardır. Paşinyan isə növbəti dəfə ölkədaxili siyasi böhrana imza atmış oldu. O, Azərbaycanın ona verdiyi bir il ərzində doğru nəticə çıxarmayaraq və arzuladığı kiçik qələbəsi, həm də müqavimətçilik imitasiyaları ilə ölkədəki narazılıqları səngidəcəyini sanaraq, əslində, özü-özünü tələyə salmış oldu. Çünki Paşinyan son bir ildə dolayısı, ya da bilavasitə revanşist qüvvəyə çeçvrilmişdi. Yəni o minimal hərbi-avantüraçılığı ilə ötənilki uğursuzluğunu kölgəyə doğru çəkməyə cəhd edirdi.

Bakı isə onu dəfələrlə (!!!) xəbərdar edirdi, inandırmağa çalışırdı ki, regional təhlükəsizliyin əldə olunması üçün yalnız danışıqlar masasına oturub sülh sazişini imzalamaq tələbi yaranıb və saziş imzalanarsa, regionda yeni inkişaf, tərəqqi sisteminin əsasları qoyulacaq.

### Paşinyan açıq-aşkar özünün yeni boykotlarını yönləndirilmiş konstruktivliyə qarşı işlədərək vəziyyətdən çıxacağını sanırdı

Bakı həmçinin Paşinyana təklif edirdi ki, inkişaflı gələcəyin səhifəsini yeniləmək lazımdır. Misal üçün, iki əsrdir məhz ermənilər tərəfindən davam edən etnik düşmənçiliyə son qoymaq, Türkiyə ilə normal, qarşılıqlı münasibətlər qurmaq, Azərbaycana və s. qonşulara qarşı ərazi iddialarından əl çəkmək, İlham Əliyev və Rəcəb Tayyib Ərdoğan tərəfindən irəli sürülən, eləcə də Vladimir Putin tərəfindən dəstəklənən ”3+3” formatını dəyərləndirmək. Bəs Paşinyan nə edirdi? O, açıq-aşkar özünün yeni boykotlarını yönləndirilmiş konstruktivliyə qarşı işlədərək vəziyyətdən çıxacağını sanırdı.

Paşinyana elə gəlirdi ki, Azərbaycan yeni həlledici ölçülər götürməyə cürət etməyəcək və açıq qarşıdurmadan yayınacaq. O, ən çox Rusiyanın Qarabağda yerləşmiş rus sülhməramlılarına ümid edirdi ki, onlar Azərbaycanın qarşısını kəsməklə yeni qarşıdurmaya imkan verməyəcəklər.

### ...Və həmin masadan qalxar-qalxmaz bu vədlərini icra etmək!

Amma hər şey anidən onun istəmədiyi kimi oldu. Ermənistan rəhbərliyi özünə xarakterik olan şantaj vasitəsi ilə üçüncü qüvvələrin - istər Rusiyanın, istərsə də Qərbin dəstəyini ala bilmədi.

Rəsmi Bakı isə nümayiş etdirdi ki, Ermənistana sonuncu və bu dəfə birdəfəlik məhvedici zərbəsini endirmək gücündə və qüdrətindədir. İrəvanın bir çıxış yolu var - danışıqlar masasına oturub, üzərinə götürdüyü öhdəliklərin təxirə salınmadan yerinə yetirilməsi vədini vermək və həmin masadan qalxar-qalxmaz bu vədlərini icra etmək!

**Rövşən RƏSULOV**

# Yevgeni Mixaylov:
## Moskva Ermənistanı öz öhdəliklərini yerinə yetirməyə məcbur etmək üçün preventiv tədbirlər görəcək

**Mənim fikrimcə, son günlərdə Ermənistan-Azərbaycan sərhədində vəziyyətin kəskinləşməsi məhz Ermənistan silahlı qüvvələri tərəfindən törədilən təxribatçı hərəkətlərlə bağlıdır.**

Rusiyalı jurnalist, politoloq, millətlərarası münasibətlər üzrə mütəxəssis Yevgeni Mixaylov AZƏRTAC-a müsahibəsində bu barədə danışıb.

Ekspert deyib: ”Hazırda baş verən bütün hadisələr 2020-ci ildə imzalanmış razılaşmaların icrasını ləngitmək və ya onları ümumiyyətlə icra etməmək cəhdidir. O vaxt sülhyaratma prosesinin qarantı kimi çıxış edən Moskva olub. Ermənistan sərhədlərin demarkasiya və delimitasiya edilməsini istəmir. Mənim fikrimcə, Moskva özünün yüz illik müttəfiqini öz öhdəliklərini yerinə yetirməyə məcbur etmək üçün lap yaxın vaxtlarda preventiv tədbirlər görəcək. Ona görə ki, baş verən bütün hadisələr ilk növbədə təkcə Azərbaycanın yox, həm də Rusiya Federasiyasının özünün milli mənafelərinə ziddir”.

Y.Mixaylov bir məqama diqqəti cəlb edib ki, məhz Rusiyanın müdafiə naziri Sergey Şoyqunun Azərbaycan və Ermənistan müdafiə nazirləri ilə danışıqlarından sonra atəşlər dayandırılıb, müvəqqəti barışıq başlanıb.

Jurnalist deyib: ”Fikrimcə, müdafiə naziri Sergey Şoyqu Ermənistan tərəfi ilə telefonla dialoqunda kifayət qədər kəskin danışıb. Mən tam əminəm ki, Rusiya bu münaqişədə neytral mövqe tutur, lakin Yerevandan razılaşmaların icrasını tələb edir. Əgər Yerevan Nikol Paşinyanın imzaladığı öhdəlikləri yerinə yetirsə, regionda sülh olacaq. Sərhədlərin demarkasiya və delimitasiyası aparılmalıdır”.



Y.Mixaylovun fikrincə, Yerevan Qərb ölkələrini bu məsələyə cəlb etmək cəhdlərindən əl çəkmir və bu da baş verən hadisələrin ümumi kontekstinə təsir edir. Ekspert deyib: ”Provokasiyalar həm də onunla bağlıdır ki, Yerevan Rusiya tərəfin öz vəzifələrinin öhdəsindən gələ bilmədiyini göstərmək istəyir və deyir ki, gəlin həmsədr ölkələr olan Fransanın və ABŞ-ın qoşunlarını gətirək”.



# "Yeni Azərbaycan Partiyası 29 ildə şərəfli tarixi yol keçib"

## YAP Pirallahı rayon təşkilatında YAP-ın təsis edilməsinin 29-cu ildönümü münasibətilə tədbir keçirilib

**Yeni Azərbaycan Partiyasının Pirallahı rayon təşkilatı partiyanın təsis edilməsinin 29-cu ildönümü münasibətilə tədbir keçirib. SİA xəbər verir ki, tədbirdə Pirallahı Rayon İcra Hakimiyyətinin başçısı Vasif İmanov, YAP Pirallahı rayon təşkilatının sədri Emil Abasov, "Səs" Media Holdinqin rəhbəri Bəhruz Quliyev, YAP Pirallahı rayon təşkilatı ərazi partiya təşkilatının sədrləri, YAP veteranları və fəalları iştirak ediblər. Əvvəlcə tədbir iştirakçıları Ümummilli lider Heydər Əliyevin büstü önünə gül dəstələri düzərək Ulu Öndərin əziz xatirəsinə ehtiramlarını ifadə ediblər.**

Himnin səsləndirilməsi və Azərbaycanın ərazi bütövlüyü uğrunda canından keçən şəhidlərimizin xatirəsi bir dəqiqəlik sükutla yad edildikdən sonra Yeni Azərbaycan Partiyasının 29 ildə keçdiyi şərəfli tarixi və YAP Pirallahı rayon təşkilatının fəaliyyəti barədə hazırlanan videoçarx tədbir iştirakçılarına nümayiş etdirildi.





Tədbiri giriş sözü ilə açan YAP Pirallahı rayon təşkilatının sədri Emil Abasov Azərbaycan dövlətçiliyinin inkişafında partiyamızın xidmətlərindən danışıb. O, qeyd edib ki, Ulu Öndər Heydər Əliyev öz siyasi dühası ilə Azərbaycanın müasir simasını müəyyənləşdirib və xalqımızın taleyində silinməz izlər qoyub: "Bu izlərdən biri də Yeni Azərbaycan Partiyasıdır. Azərbaycan Prezidenti cənab İlham Əliyevin sədri olduğu Yeni Azərbaycan Partiyası bizim qarşımıza xalqımıza, dövlətimizə sədaqətlə xidmət etmək, ictimai həyatda fəal olmaq və Azərbaycanın dövlət müstəqilliyinin qorunub saxlanılmasında yaxından iştirak etmək kimi önəmli vəzifələr qoyur. Ulu Öndərin yeni bir paradiqma kimi cəmiyyətə təqdim etdiyi azərbaycançılıq məfkurəsi xalqımızı ən çətin anlarda birləşdirən və həmrəy edən məhək daşına çevrildi. 44 günlük Vətən müharibəsi dövründə biz bu ideyanın nə qədər dəyərli və həyat qabiliyyətli olduğunu bir daha gördük. Cənab İlham Əliyevin rəhbərliyi altında YAP-ın ideoloji tezislərindən faydalanan bugünkü Azərbaycan sürətlə dəyişən post-modern və digital dünyada milli-mənəvi dəyərləri qoruyaraq inkişafa nail olmağın mümkünlüyünü sübut edən tərəqqi modelinə çevrilib".

Tədbirdə Pirallahı rayon İcra Hakimiyyətinin başçısı Vasif İmanov bildirib ki, Yeni Azərbaycan Partiyasının güclü siyasi təşkilat kimi formalaşması, ölkəmizin ictimai-siyasi həyatında iqtidar partiyası kimi aparıcı yer tutması dövrün məntiqi reallığı idi: "Heydər Əliyevin ideoloji baxışlarından və siyasət fəlsəfəsindən səmərəli şəkildə bəhrələnməsi partiyanın qələbələr qazanmasını şərtləndirirdi. Bu gün də YAP möhtərəm Prezidentimiz, partiyamızın sədri cənab İlham Əliyevin rəhbərliyi ilə böyük uğurlar qazanır. Partiyamız ölkənin bugünkü sürətli inkişafında, respublikanın beynəlxalq nüfuzunun artmasında, bütün sahələrdə əldə olunan tərəqqidə xüsusi rola malikdir. Vətən müharibəsində bütün dünya Müzəffər Ali Baş Komandanımızın, möhtərəm İlham Əliyevin yüksək strateji dühasının və sərkərdəlik istedadının canlı şahidi oldu. Bu misilsiz zəfər bizi tarixin qalib xalqına çevirdi. Ulu Öndərimiz Heydər Əliyevin və cənab Prezidentin siyasətinə sadiq olan Pirallahı sakinləri bundan sonra da bu yola sədaqətlə xidmət göstərəcəklər". Vasif İmanov həmçinin, Pirallahı rayonunda həyata keçirilən geniş quruculuq işləri haqqında da məlumat verdi.

Tədbirdə çıxış edən "Səs" Media Holdinqin rəhbəri Bəhruz Quliyev partiyanın yaranma tarixi, onun keçdiyi şərəfli inkişaf yolu haqqında fikirlərini bildirib: "Ümummilli lider Heydər Əliyevin rəhbərliyi və ideyaları əsasında qurulan YAP-ın 29 illik inkişaf tarixi göstərdi ki, Yeni Azərbaycan Partiyasını yaradanlar, bu partiyanın təməl daşını qoyanlar yeni müstəqil dövlətimizin siyasi-iqtisadi, sosial-mədəni inkişafının istiqamətini müəyyən etməklə öz seçimlərində yanılmayıblar". Natiq həmçinin, ölkəmizdə azad KİV-in inkişafında dövlət başçısı, YAP sədri cənab İlham Əliyevin misilsiz xidmətlərini tədbir iştirakçılarının diqqətinə çatdırdı. Ölkədə görülmüş nəhəng miqyaslı inkişaf, quruculuq və tərəqqi trendinin əhalinin geniş təbəqələrinə təsirli, obyektiv və dolğun çatdırılmasının vacibliyini vurğuladı.

Daha sonra çıxış edən digər natiqlər- YAP Pirallahı rayon Ağsaqqallar Şurasının üzvü Fazil Məhəmmədov, Pirallahı RİH-in Vətən müharibəsi iştirakçıları və şəhid ailələri ilə işin təşkili şöbəsinin müdiri Süpay Məmmədov çıxış ediblər.

***İnam Hacıyev***



## YAP veteranları ilə görüş keçirilib

YAP Ağcabədi rayon təşkilatı Yeni Azərbaycan Partiyasının yaradılmasının 29-cu ildönümü münasibətilə təsdiq edilmiş tədbirlər planına müvafiq olaraq bir qrup YAP veteranı ilə görüş keçirib. Tədbir iştirakçıları əvvəlcə Yeni Azərbaycan Partiyasının yaradıcısı, Ümummilli Lider Heydər Əliyevin abidəsini ziyarət etmiş, önünə çiçək dəstələri düzərək, onun əziz xatirəsini ehtiramla yad ediblər. YAP Ağcabədi rayon təşkilatının inzibati binasında davam etdirilən tədbirdə Azərbaycanın Dövlət Himni səsləndirilib.

YAP Ağcabədi rayon təşkilatının veteranları ilə görüşü YAP Ağcabədi rayon təşkilatının sədri vəzifəsini icra edən Rövşən Əhmədov açaraq, görüş iştirakçılarını salamlayıb, Yeni Azərbaycan Partiyasının yaradıcısı Ulu Öndər Heydər Əliyevin və Azərbaycanın ərazi bütövlüyü və müstəqilliyi uğrunda həlak olan şəhidlərin əziz xatirəsi 1 dəqiqəlik sükutla yad edilib. Rövşən Əhmədov Yeni Azərbaycan Partiyasının yaranması, keçdiyi inkişaf yolu və qazanılan uğurlar barədə geniş məruzə ilə çıxış edib. Görüşdə YAP-ın veteranları Teymur Rəhimov, Ağcabədi Pedoqoji Kollecinin direktoru Mirələm İbrahimov, Ağcabədi RİH yanında ictimai şuranın sədri Vaqif Qarayev, Əli Bədəlov çıxış edərək, öz fikirlərini və təəssüratlarını bölüşüblər.

Görüşün yekununda Ağcabədi rayon icra hakimiyyətinin başçısı Rafil Hüseynov çıxış edib. Görüş bir qrup YAP veteranının iştirakı ilə çay süfrəsi arxasında davam etdirilib.

***Zümrüd BAYRAMOVA***

## YAP Ağsu rayon təşkilatında tədbir keçirilib

YAP Ağsu rayon təşkilatında 18 noyabr 2021-ci il tarixdə Yeni Azərbaycan Partiyasının yaranmasının 29-cu ildönümünə həsr olunmuş yığıncaq keçirilib. Tədbir başlamazda öncə Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin, Azərbaycanın müstəqilliyi və bütövlüyü uğrunda həlak olmuş şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad olundu. Sonra Dövlət himni səsləndirildi. YAP Ağsu rayon təşkilatının sədri Əli Hüseynov məruzə ilə çıxış edərək bildirdi ki, Yeni Azərbaycan Partiyasının yaranmasının 29-cu ildönümü təkcə partiyada deyil, bütün xalq tərəfindən, vətənini, dövlətini sevən, onun bu gününə, sabahına, xoşbəxt gələcəyinə biganə qalmayan bütün vətəndaşlar tərəfindən yüksək bayram əhval-ruhiyyəsi ilə qeyd edilir. İctimai-siyasi proseslərin kifayət qədər mürəkkəb, keşməkeşli axarda cərəyan etdiyi bir vaxtda dahi şəxsiyyət Heydər Əliyevin rəhbərliyi ilə 1992-ci il noyabrın 21-də təsis edilən Yeni Azərbaycan Partiyası qısa müddətdə ölkənin gələcək taleyini müəyyənləşdirən, əsas qüvvəyə çevrilən siyasi qurum olmuşdur. Tarixi zərurətdən yaranan partiya ötən 29 ildə xalqa xidmət missiyasını şərəflə yerinə yetirmişdir.






Yığıncaqda YAP Ağsu rayon təşkilatının Qadınlar Şurasının sədr müavini Sevil Mirzəliyeva, YAP Ağsu rayon təşkilatının Şura üzvü Rəhilə Musayeva, YAP Ağsu rayon təşkilatının Gənclər birliyinin sədri Elnur Fərzəlizadə, YAP Ağsu rayon təşkilatının Şura üzvü, Çaparlı ərazi partiya təşkilatının sədr müavin Allahverdi Qənbərov, Muradlı ərazi partiya təşkilatının sədri Sehrayə Hümbətova çıxış edərək bildirdilər ki, tarixi zərurətdən yaranan Yeni Azərbaycan Partiyası böyük inkişaf yolu keçərək cəmiyyətin ən aparıcı qüvvəsinə çevrilmişdir. Partiyanın böyük nüfuza malik olması onun yaradıcısı ulu öndərimiz Heydər Əliyevin adı ilə bağlıdır. Nəinki ölkənin, eləcə də bölgənin aparıcı siyasi qüvvəsinə çevrilən Yeni Azərbaycan Partiyasının sıralarının günbəgün artması Heydər Əliyev ideyalarına sədaqətin, həyata keçirilən siyasətin gələcəyinə inamın göstəricisidir.

Yığıncaqda Ağsu rayon İcra Hakimiyyətinin başçısı Rövşən Bağırov çıxış edərək bu gün ölkəmizin ictimai-siyasi həyatında aparıcı rol oynayan Yeni Azərbaycan Partiyasının keçdiyi inkişaf yolundan, Azərbaycanın əldə etdiyi uğurlardan geniş bəhs etdi. Natiq bildirdi ki, Azərbaycanın hazırda ən yüksək zirvələri fəth etməsi ulu öndər Heydər Əliyevin düzgün müəyyənləşdirdiyi siyasətin Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilməsinin nəticəsidir.

***RƏFİQƏ***

# "Yeni Azərbaycan Partiyası ümumxalq partiyasıdır!"

## *YAP-ın yaranmasının 29-cu ildönümü münasibətilə tədbir keçirilib*

**Yeni Azərbaycan Partiyası Səbail rayon təşkilatında partiyanın yaranmasının 29-cu ildönümünə həsr olunmuş tədbir keçirilib. SİA xəbər verir ki, tədbirdə YAP Səbail rayon təşkilatının sədri Muxtar Nağıyev, Milli Məclisin deputatları Sadiq Qurbanov və Hikmət Məmmədov, YAP Səbail rayon təşkilatının əməkdaşları və partiya fəalları iştirak ediblər.**





Tədbirin açılışında Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib və Azərbaycan Respublikasının ərazi bütövlüyü uğrunda canında keçən şəhidlərimizin əziz xatirəsi bir dəqiqlik sükutla yad edilib.

Daha sonra YAP-ın yaradılmasının 29 ildönümü ilə bağlı video-rolik təqdim edilib. Tədbirdə çıxış edən YAP Səbail rayon təşkilatının sədri Muxtar Nağıyev bildirib ki, bu gün Yeni Azərbaycan Partiyasının yaradılmasının 29-cu ildönümü qeyd edilir: "Yeni Azərbaycan Partiyası çox böyük və şərəfli tarixi yol keçib. Yeni Azərbaycan Partiyası Azərbaycan tarixinin son dərəcə ağır və keşməkeşli günlərində, ölkənin ciddi sınaqlara məruz qaldığı bir dövrdə Azərbaycan ziyalılarının təşəbbüsü və fəal iştirakı ilə yaradılıb. Yeni Azərbaycan Partiyasının yaranması 1988-ci ildən başlayaraq ölkəmizdə cərəyan edən hadisələrin yekunu və mövcud olan ictimai-siyasi şəraitin məntiqi nəticəsi idi. Məhz belə bir vaxtda 91 nəfər Azərbaycan ziyalısının imzası ilə Naxçıvana, Heydər Əliyevə müraciət göndərildi. Azərbaycanın ən yeni tarixinə "91-lər"in müraciəti kimi daxil olmuş həmin sənəd əslində, bütün xalqın arzu və istəklərinin ifadəsi idi. Azərbaycanın görkəmli ziyalıları, tanınmış insanları və nüfuzlu şəxsiyyətlərinin imzaladıqları bu müraciətdə Heydər Əliyevdən yeni yaradılacaq siyasi partiyaya rəhbərlik etmək xahiş olunurdu. Heydər Əliyev xalqın müraciətini qəbul etsə də, onun Bakıya gəlməsinə o zamankı hakimiyyətin maneələr yaratması ucbatından partiyanı yaratmaq istəyən insanların bir hissəsi - 550 nəfərdən ibarət təşəbbüs qrupu Naxçıvana gedərək partiyanın təsis konfransını orada keçirməyə nail oldular. Azərbaycanın bütün regionlarından seçilmiş nümayəndələrin təmsil olunduğu konfrans 1992-ci il noyabrın 21-də Heydər Əliyevin sədrliyi ilə keçirildi. Təsis konfransı Yeni Azərbaycan Partiyasının yaradılması haqqında qərar, partiyanın Proqram və Nizamnaməsini qəbul etdi. Konfransda Heydər Əliyev yekdilliklə partiyanın Sədri seçildi. Habelə, partiyanın Siyasi Şurası, İdarə Heyəti və sədrin müavinləri seçildi. Beləliklə, müstəqil Azərbaycan tarixində öz üzərində böyük tarixi missiya götürən və xalqımızın həyatında mühüm hadisəyə çevrilən Yeni Azərbaycan Partiyası yarandı.

Milli Məclisin deputatı Sadiq Qurbanov Partiyanın yaradılmasının 29-cu ildönümü münasibətilə hər kəsi təbrik edib. Deputat Yeni Azərbaycan Partiyasının yaranma zərurtindən bəhs edərkən qeyd edib ki, ölkəmiz uçurumun kənarında və müstəqilliyimiz itirilmə təhlükəsi altında idi: "Lakin Azərbaycan xalqı müdrik xalq idi və bu çətin zamanda xalq üzünü Heydər Əliyevə tutdu. Heydər Əliyev ölkəni bu böhrandan çıxara biləcək tək şəxs idi. O dövrün hakimiyyətində olan şəxslər Ulu Öndər Heydər Əliyevin yolunu kəsməyə çalışırdılar. Buna görə də Partiyanın yaradılması zərurəti var idi. Partiyanın yaradılması ilə əlaqədar 91 nəfər ziyalının müraciəti dərc olundu və Ulu Öndər Heydər Əliyev də həmin müraciətə cavab verdi. Heydər Əliyev xalqın müraciətini qəbul etsə də, onun Bakıya gəlməsinə o zamankı hakimiyyətin maneələr yaratması ucbatından partiyanı yaratmaq istəyən insanların bir hissəsi - 550 nəfərdən ibarət təşəbbüs qrupu Naxçıvana gedərək partiyanın təsis konfransını orada keçirməyə nail oldular. Partiya qısa müddətdə konstriktiv müxalifətçilik etməklə legitim yolla hakimiyyətə gəldi. Bundan sonra Azərbaycan inkişaf dövrünə qədəm qoydu."

Tədbirdə çıxış edən Milli Məclisin deputatı Hikmət Məmmədov partiyanın yaradılması ilə əlaqədar bütün partiya üzvlərini təbrik edib. Deputat qeyd edib ki, Yeni Azərbaycan Partiyası Azərbaycanın siyasi sisteminin formalaşmadığı, lakin bu siyasi sistemə ehtiyac olduğu bir dövrdə tarixi zərurətdən yarandı. Ulu Öndər Heydər Əliyevin Azərbaycan xalqı qarşısında xidmətlərinin şah əsərlərindən biri də Yeni Azərbaycan Partiyasıdır. Biz Yeni Azərbaycan Partiyası haqqında danışarkən bir sıra frazalardan istifadə edirik. Onlardan biri də odur ki, Yeni Azərbaycan Partiya ümumxalq partiyası, Qələbələr partiyasıdır. Palitologiya tarixində hələ belə bir nümunə yoxdur ki, partiya yarandıqdan sonra qısa müddətdə hakimiyyətə gəlir və uzun müddət siyasi sistemin lokomativi kimi hakimiyyətdə qalmağı bacarır. Biz qələbələrimizi sadalayarkən prezident, parlament, bələdiyyə seçkilərindəki qələbələrimizdən danışırdıq. Bu zaman opponentlərimiz deyirdilər ki, bunlar qələbə deyil. Torpaqları işğal altında olan bir ölkənin partiyası özünü qələbələr partiyası adlandıra bilməz. Əldə etdiyimiz ən böyük qələbə Yeni Azərbaycan Partiyası sədrinin, müzəffər Ali Baş Komandan İlham Əliyevin işğalçı Ermənistan üzərində əldə etdiyi qələbədir. Bu xalqımızın, ordumuzun və Ali Baş Komandanımızın birgə qələbəsi olmaqla bərabər, həm də partiya sədri kimi Yeni Azərbaycan Partiyasının əldə etdiyi tarixi zəfərdir. Bu mühüm tarixi qələbə də Yeni Azərbaycan Partiyasının avtobioqrafiyasına qızıl hərflərlə yazılıb və qələbələrimizin tacıdır".

Daha sonra tədbirdə sözügedən 91-lərdən Novruz Quliyev, Rizvan Vahabov, Əli Əlirzayev, həmçinin Qərbi Kaspi Universtetinin ƏPT sədri Zenfira Məmmədova və partiyanın gənc fəalı Riyad Rüstəmli partiyanın yaranması tarixindən bəhs edərək partiya üzvlərini bu gün münasibətilə təbrik ediblər. Sonda isə YAP sıralarına yeni daxil olan partiya üzvlərinə vəsiqələrini təqdim ediblər.

***Aysel Məmmədova***



## YAP Ağdaş rayon təşkilatında onlayn konfrans keçirilib



Yeni Azərbaycan Partiyası Ağdaş rayon təşkilatında partiyanın yaradılmasının 29-cu ildönümünə həsr olunmuş "Yeni Azərbaycan Partiyası ümumxalq partiyasıdır" mövzusunda onlayn konfrans keçirilib. Konfransı giriş sözü ilə Yeni Azərbaycan Partiyası İdarə heyətinin üzvü, YAP Ağdaş rayon təşkilatının sədrinin səlahiyyətlərini icra edən, millət vəkili Cavid Osmanov açıb. Sonra Yeni Azərbaycan Partiyasının yaradıcısı, Ümummilli Lider Heydər Əliyevin və torpaqlarımızın azadlığı uğrunda canlarını fəda edən şəhidlərimizin əziz xatirələri bir dəqiqəlik sükutla yad edilib.

YAP-ın keçdiyi inkişaf yolu haqqında iştirakçılara ətraflı məlumat verən Cavid Osmanov bildirib ki, 21 noyabr 1992-ci il müasir Azərbaycan tarixinə yazılan tarixi bir gündür. Elə bir gün ki, həmin gündən yenicə dövlət müstəqilliyini qazanmış və böyük faciələrlə üzləşmiş Azərbaycan Respublikasının məhv olunmaqdan qurtulmasının əsası qoyulmuşdu: "1992-93-cü illərdə AXC-Müsavat cütlüyü ölkənin dərin böhrana düşməsi üçün əlindən gələni etmişdi. Həm hakimiyyətə gəlmək üçün, həm də hakimiyyətdə olduqları zaman AXC-Müsavat cütlüyünün səriştəsiz və naşı fəaliyyəti, eyni zamanda bir sıra üzvlərinin xəyanətkarlığı nəticəsində dövlətçiliyimizə ağır zərbələr vurulmuşdu. İnsanlar birmənalı şəkildə dərk edirdilər ki, Azərbaycanı xilas etməyin yeganə yolu Ulu Öndər Heydər Əliyevin hakimiyyətə gəlməsidir. Yeni Azərbaycan Partiyası yaranmasaydı və Ulu Öndər Heydər Əliyev hakimiyyətə gəlməsəydi, biz tamamilə fərqli taleyi yaşayacaqdıq. Heydər Əliyevin hakimiyyətə gəlməsi Azərbaycanın bəlalardan xilas olmasına gətirib çıxardı. Xaos, anarxiya, iqtisadiyyatda tənəzzül aradan qaldırıldı, böyük islahatlar həyata keçirildi, erməni təcavüzünün qarşısı alındı, separatizm yerində boğuldu və Azərbaycanın bugünkü inkişafa gəlib çatması üçün əlverişli mühit yarandı. Beləliklə, Yeni Azərbaycan Partiyası əsl ümumxalq partiyasına çevrildi".

Çıxış edən millət vəkili, YAP Təftiş Komissiyasının üzvü Elman Nəsirov bildirib ki, Azərbaycan Ulu Öndər Heydər Əliyev və Prezidentimiz İlham Əliyevin sayəsində bu gün dünya reytinqlərində ən yüksək yerlərdə durur. O, qeyd edib ki, bu gün insanlarımız sabit, sürətlə inkişaf edən ölkədə yaşamaqdan qürur duyurlar, doğma Azərbaycanımız Prezidentimiz, partiyamızın Sədri Cənab İlham Əliyevin rəhbərliyi altında hər bir azərbaycanlının fəxr edə biləcəyi bir məkana çevrilmişdir: "Bu uğurların əsasında xalqa xidmət etmək mədəniyyəti durur. Azərbaycan vətəndaşlarının böyük hissəsi də dərindən inanır ki, bundan sonra da uzun illər Azərbaycanın uğurları Yeni Azərbaycan Partiyasının iqtidarı ilə bağlı olacaqdır. Bunu deməyə əsas verən vətəndaşların Prezident İlham Əliyevə dərin inamıdır. Bu inamı isə ötən il sentyabr ayının 27-dən başlayan, tariximizə qızıl hərflərlə yazılan İkinci Qarabağ müharibəsində Cənab Prezidentimiz, Ali Baş Komandanımız İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Ordusunun əldə etdiyi Böyük Qələbə daha da bərkitdi və əbədi etdi. Bu Qələbənin tarixdə mühüm yeri təkcə 30 il sonra torpaqlarımızın işğaldan azad edilməsi deyil, həm də milli qürurumuzun qaytarılmasıdır. İndi hər birimiz azərbaycanlı olmağımızın qürurunu yaşayırıq."

Ağdaş rayon icra hakimiyyəti başçısının müavini Əli Kərimov çıxışında qeyd edib ki, ölkəmizdə gedən bütün proseslər, həyata keçirilən siyasət xalqımızın əsrlərdən bəri tarixi yaddaşında saxladığı arzularını gerçəkləşdirməyə - müstəqilliyini daimi, əbədi, dönməz etməyə imkan vermişdir: "YAP-ın tarix və xalq qarşısında ən böyük və ümdə vəzifəsi bu siyasi xəttə sadiq qalmaq, bu yolla inamla irəliləməkdir. Həyat artıq çoxdan sübuta yetirmişdir ki, ümummilli Liderimiz Heydər Əliyevin zəngin siyasi və dövlətçilik təcrübəsinə əsaslanan Yeni Azərbaycan Partiyası ölkəmizdə ən güclü, ən mükəmməl siyasi təşkilatdır və ictimai nüfuzuna görə onunla müqayisə edilə biləcək digər qurum mövcud deyil".

Konfrans iştirakçılarına partiyanın yaradılmasının 29-cu ildönümü münasibətilə təbriklərini çatdıran Ağdaş şəhər ilk partiya təşkilatının sədri Şəhla Hacıbalayeva Cənab Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin həyata keçirdiyi düşünülmüş qətiyyətli və uğurlu siyasət nəticəsində Azərbaycanın güclü dövlətə çevrildiyini bildirib. Konfransı yekunlaşdıran Cavid Osmanov bildirib ki, YAP hər zaman öz fəaliyyətini günün tələblərinə uyğun quran siyasi təşkilatdır. Partiyanın VII Qurultayı da məhz yaranmış bu yeni reallıqlar fonunda cari ilin mart ayının 5-də keçirdi. Düzdür, bu günə qədər keçirilmiş olan hər bir Qurultay YAP-ın həyatında əlamətdar hadisə olaraq qalmışdır. Lakin VII Qurultay bir çox özəllikləri ilə əvvəlki qurultaylardan fərqlənir və bu Qurultay Yeni Azərbaycan Partiyasının həyatında yeni dönüş nöqtəsi hesab edilə bilər. Yeni Azərbaycan Partiyası yaranmasının 29-cu ilini qeyd edir və partiya gələn il keçiriləcək 30 illik yubleyinə yeniləşmiş formatda, daha fəal qədəm qoyur.

***Zümrüd BAYRAMOVA***

# Düzgün ətir necə seçilməlidir: Qiymət, yoxsa keyfiyyət?

**Qoxuların yaddaşımıza, duyğularımıza və əhvalımıza təsiri kifayət qədər yüksəkdir. Xoş bir qoxu hiss etdikdə belə, özünüzü daha xoşbəxt və pozitiv hiss edirsiniz. Bəzi qoxular bizi uzaq diyarlara, unutduğumuz zənn etdiyimiz xatirələrə aparacaq qədər güclüdür. Biz hamımız bunu mütləq yaşamışıq.**

## Ətirlər xatirələrimizi canlandırır

Araşdırmalara görə, qoxular bizim emosional yaddaşımızla sıx bağlıdır. Qoxu yaddaşı deyə biləcəyimiz bu vəziyyət sayəsində hər hansı bir qoxu hiss etdiyimiz zaman beynimizdə xatirələr və bəzi duyğular canlanır. Qoxu molekulları beynimizə ötürüldükdə, qoxu yaddaşımızı aktivləşdirir və bizə xatirələrimizi xatırladır. Məhz buna görə uşaqlıqda məktəbdən qayıtdıqdan sonra ananızla birlikdə hazırladığınız o isti, sobadan təzə çıxmış peçenyelərin iyini hələ də xatırlayırsınız. Qoxuların xüsusilə uşaqlıq xatirələrimizi canlandırmasının səbəbi qoxu duyğumuzun uşaqlıq və yeniyetməlik dövründə ən yaxşı şəkildə işləməsidir.

## Ən yaddaqalan duyğumuz qoxu duyğumuzdur

Qoxu ilə bağlı maraqlı bir məlumat da budur ki, araşdırmalara görə gördüyünüz bir şeyi 1 ildən sonra xatırlama nisbəti 50%-dən aşağı, qoxusunu xatırlama nisbəti isə 65%-dir. Yəni qoxusunu bildiyimiz bir şeyi xatırlayırıq.

## Hər insanın qoxusu bir-birindən tamamilə fərqlidir

Öz qoxumuz barmaq izlərimiz kimi tamamilə bizə xasdır. Hətta yediyimiz qidalar və stresimiz də qoxumuzun dəyişməsinə səbəb ola bilər. Ev heyvanınızın sizi qoxudan tanıya bilməsinin və güclü qoxu hissi olan polis itlərinin axtarış əməliyyatlarında istifadə edilməsinin səbəbi hər bir insanın özünəməxsus qoxuya malik olmasıdır.

Yatarkən nəfəs aldığımız qoxuların yuxularımıza təsir etdiyini bilirdinizmi?

Qoxu haqqında çox maraqlı məlumatlardan biri də yatarkən nəfəs aldığımız qoxuların yuxularımıza təsir etməsidir. Araşdırmalar göstərib ki, yuxu zamanı pis qoxuya məruz qalan insanlar kabuslar görür, çiçək iyi alan insanlar isə daha müsbət və xoşbəxt yuxular görürlər.

## İnsanları ətir qoxusu ilə heyran edə bilərsiniz

Müəyyən qoxuların əks cinsə təsir etməsində mühüm rol oynadığını araşdırmalar sübut edir. İmmunitet sistemimizin ifraz etdiyi feromon hormonunun fərqində olmasaq da, qoxusunu hiss edirik. Sevgi qoxusu da adlandırılan bu qoxu sayəsində bəzi insanları daha cazibədar tapdığımız sübut olunub. Beləliklə, onlar ətir tərkiblərində tez-tez feromon hormonundan istifadə etməyə başladılar. Bundan əlavə, lavanda, səndəl ağacı, paçuli və vanil notları olan ətirlər də insanların sizi olduğunuzdan daha cazibədar tapmasına kömək edəcək.

Bəzi qoxular bizə rahatlaşdırıcı təsir göstərə bilər.

Müəyyən aromaları olan ətirlər psixoloji cəhətdən rahatlaşdırıcı təsirləri aşkar etməyə kömək edir. Məsələn, qızılgül və ya lavanda yandırdığınız zaman rahatlaşır və dincəlirsiniz. Qəhvə qoxusu bir çox insanı rahatlaşdıran başqa bir qoxudur. Lavanda qoxusunun qan dövranını sürətləndirici təsiri sayəsində miqren və əzələ ağrılarından xilas ola bilərsiniz. Bundan əlavə, rozmarin qoxusu stress hormonlarının ifrazının qarşısını alır və sizi rahatlaşdırır.

## Qoxulardan istifadə etməklə müalicə oluna bilər



6000 illik tarixə malik aromaterapiya dediyimiz bu üsulda müəyyən qoxuların köməyi ilə müalicələr tətbiq edilir. Nanə, lavanda, qızılgül limonu, yasəmən kimi bitkilərin özlərindən və qoxularından buxar və ya masajla istifadə edərək ağrıları aradan qaldırmaq mümkündür. Otağınızda aromaterapiya şamlarından istifadə etmək sizi sakitləşdirəcək və özünüzü yaxşı hiss edəcəksiniz.

## Ətirlər seçimlərimizə təsir edə bilər

Əksər brendlər müştəriləri ilə münasibət qurarkən ətirlərdən istifadə edirlər. Bəzi mağazalardan çox gözəl qoxu gəldiyinin şahidi ola bilərsiniz. Satılan məhsulların və ətrin bir-birinə uyğun olması müştərinin diqqətini çəkir. Xoş qoxular mağazada qalma müddətini uzatmaq və müştəridə müsbət emosiyalar yaratmaq üçün istifadə olunur. Beləliklə, alış-veriş ehtimalını artırırlar. Araşdırmalara görə, ətirdən istifadə edən brendlər mağazada qalma müddətini 16%, alış sayını isə 15% artırıb. Ətir qutusunun arxasındakı yazıları oxumağa çalışan və nə yazıldığını anlamaqda çətinlik çəkənlər bilir ki, ətir dünyasının özünəməxsus, terminlərlə dolu bir dili var. Öz dili olan ətir dünyasının əsas adlarını və terminlərini araşdıraq.

## QOXUNUN NÖVLƏRİ

Eau de Cologne - EdC: Ən yüngül konsentrasiyalı ətir, 3% aktiv tərkib hissəsidir, isti yay günləri üçün yaxşı seçimdir. Daha çox təravətləndirmək üçün istifadə olunur və qoxuları çox qalıcı deyil.

Eau de Toilette - EdT: Tərkibində 3-8% ətir konsentrasiyası yaz və yay günləri üçün uyğundur. Onlar təravətləndirici, canlandırıcı qoxulardır və çox uzun müddət qalmırlar.

Eau de Parfum - EdP: EdP-lər ətrin orta, üst və alt notlarını nümayiş etdirir. Saçlara və ya paltarlara püskürtmək üçün üstünlük verilməlidir, lakin zərif parçalara püskürtməkdən çəkinmək lazımdır. Bu, ətirin ən konsentrat forması olan daha yüngül formasıdır. EdP ətir ilə qarışdırılmamalıdır.

Ətir: Ətir ətir maddəsinin ən sıx formasını ehtiva edir. Üst, alt və orta notlar zamanla yaranır və tətbiq olunduqca fərqlənir. O, ətirlərin ən güclüsüdür və qısa müddət ərzində dəriyə tətbiq olunmalıdır.

## Ətirin tərkibi

Akkord: Bir neçə fərqli ətir notları və ya inqrediyentlərinin birləşməsindən əmələ gələn unikal ətirlərə verilən addır.

Üst notlar: Davamlı olaraq alt və yuxarı notlar arasında yerləşir, adətən qızılgül və ya lavanda kimi çiçək-bitki notlardır.

Orta notlar: Bunlar ilk hiss edilən, güclü, lakin asanlıqla buxarlanan ətir notlarıdır. Bu qeydlər həm də ətir haqqında mühakimənizi formalaşdırır.

Əsas notlar: Alt və orta notlar ətirin əsas mövzusunu təşkil edir, lakin onlar dərhal aşkar edilmir və görünməsi 30 dəqiqə çəkir. Bunlar ətirlərin ən ağır tərkib hissəsidir.

Çiçək qoxuları: Çiçək buketinin qoxusunu ehtiva edən ətirlərə deyilir. Portağal çiçəyi, frezya və pion bu qoxularda ümumi birləşmələrdir, lakin qızılgül kimi tək tərkibli çiçək ətirləri də var. SİA məsələ ilə bağlı araşdırma apararaq mütəxəssislərin fikirlərini öyrənib.

"Melodia perfumery" ətir mağazasının sahibi ətirlər haqqında bizə məlumat verib: "Ətri aldığımız insanın yaşı, onun üstünlük verdiyi qoxular, ailə və iş statusu, ümumiyyətlə, yaşam stili nəzərə alınmalıdır. Sevimli flakonlar hər bir qadında çoxluq təşkil etməlidir. Parfumlardan hər gün istifadə etmək lazımdır. Lakin hansı parfumdan nə vaxt istifadə etməli olduğumuzu mütləq bilməliyik. Parfumları gündəlik, günün müxtəlif vaxtı, ilin fəsili, əhval-ruhiyyə və gecə həyatına görə seçmək daha düzgündür. Məsələn: səhər işə gedərkən əsasən yüngül ətirlərdən istifadə olunmalıdır. Gündüz ətri iş əhval-ruhiyyəsini pozmamalıdır. Ziyafətə gedərkən daha tünd və şleyfli ətirlər məsləhətdir. İlk görüşə isə yeni ətirlə eksperiment etməməyi məsləhət görürük.

Ətrin öz xüsusiyyətini uzun müddət saxlaması üçün onun saxlama qaydalarına əməl etmək lazımdır. Ətirləri quru, sərin və qaranlıq yerdə (adətən qutusunda) saxlamaq lazımdır ki, onlara günəş şüaları düşməsin.

Ətirlər, parfümlər dedikdə ağıla gələn ilk şey cəlbedici aromatik qoxulardır. Bir parfüm aldığınız zaman diqqət edəcəyiniz ilk şey fəsilə uyğun olmasıdır. Çünki parfümlərin qalıcılığı onun maddiyatından yox parfümün özünə görə asılıdır. Məsələn yayda ağır parfümlərdən isdifadə etsəniz sizi yorar, qışda isə zərif ətirlər isifadə etsəniz o qədər də qalıcı olmaz. Bunun üçün zərif parfümləri yayda, tünd, ədviyyatlı, odunsu qoxuları isə qışda isdifadə edə bilərsiz. Belə daha yaxşı seçim olar. İndiki fəsilə uyğun kişi ətirlərindən "Bvlgarinin Le Gemme" kolleksiyasından "Gyan" parfümü bu fəsil üçün ən gözəl seçim olar. Valehedici, cəlbedici qoxuya malikdir. Parfüm ədviyyatlı qurupa aid olduğu üçün qalıcılığı möhtəşəmdir və sizi yormaz. Həmçinin, ətrafınızdakı insanların marağına səbəb olar. Xanımlar üçün isə bu fəsilə uyğun "Girogio Armaninin" yeni parfümlərindən hesab edilən "My Way" ətiri möhtəşəm bir seçim ola bilər. Bu parfüm həm qoxusu, həm qalıcılığı, həm də yayıcılığı ( Şleyfi ) ilə sizə möhtəşəm bir performans bəxş edəcək. Unutmayın ki, parfümlər gözlə görünməyən aksessuarlardır. Qoxu insan haqqında hətta onun müəyyən səbəblər və ya düşüncələrdən özü barədə deyə bilmədiyini söyləyir".

Stil məsləhətçisi Rena Əliyeva isə məsələyə belə münasibət bildirib: "İstər kişilər, istərsə də qadınlar üçün olan ətirlərdən danışmazdan əvvəl bir şeyi nəzərənizə çatdırmaq istəyirəm ki, ətirlə gündüz yox, gecələr istifadə üçündür. Gecə deyərkən, yəni axşam saatlarında olan gəzintilər üçündür. Çünki bir çox insanların duxulara qarşı həssasiyyəti var. Həddindən artıq olan qoxu insanlarda hansısa ürəkbulanma və miqren ağrılarına səbəb ola bilər. Bu mənim ən həssas olduğum yerdir. Hər kəs də diqqət etsə daha yaxşı olar. Səhər-səhər bol-bol ətir vuran insanlar görəndə məndə miqren yaranır. Ətir çox mədəniyyət tələb edən bir mövzudur. Moda əxlaqında səhər saatlarında ətir vurmaq düzgün sayılmır.

Ətir də geyim kimi bir növ insanın xarakterindən xəbər verir. Həmçinin, qarşınızdakı insana da müəyyən mesajlar verir. Kişilər üçün daha tünd notalardan olan ətirlər güclü kişi xarakterlərindən xəbər verirsə, daha freş olanlar isə incə və mədəni kişi təəssüratı verir. İnsan əsasən öz xarakterinə uyğun ətirlər seçir.

Qadınlarda şirin və tünd iylərin qarşı tərəfə verdiyi hissiyat daha əlçatmaz olarkən, freş və meyvə tonlarında olan ətirlər isə daha səmimi təəssürat verir. Son zamanlarda isə kişi və qadın ətirlərinin əksəriyyətində unisex istifadə olunur. Mən özüm də bir çox ətir istifadə edirəm. Eynisini tapa bilmədikdə isə əvəzedicisini alıram.

Onu da qeyd edim ki, ətirlər uzaqdan sprey kimi istifadə olunacaq bir şey deyil. Ətir biləkdə və qulaq arxasında istifadə olunan bir şeydir. Bunu da sadəcə sənə yaxın olan insanlar hiss etməlidir. Bunlar hamısı etika qaydalarıdır". Məsələ ilə bağlı şəhər sakinlərinin fikirlərini də öyrəndik:

Şəhər sakini Fatma Abdulla: "Mən, daha çox açıq qoxulu ətirlərə üstünlük verirəm. Gül qoxulu ətirləri isə qətiyyən sevmirəm. Sadə ətirləri sevirəm. Yəni, məndən ətir iyi gəlməsi mənim üçün vacib deyil. Əsas odur ki, təravətli ətrim olsun. Qramı 1-2 manatlıq ətirləri alıb öncə yoxlayıram. Daha sonra 10 qram alıram və bu məndə bir müddət gedir".

Şəhər sakini Fatimə İsmayılova: "Mən şirin duxuların qoxularını daha çox bəyənirəm. Bəzən freş qoxulara da üstünlük verirəm. Duxuların qiyməti məncə elə də baha deyil. Amma ucuz da deyil".

Şəhər sakini Fatimə Əzizli: "Kişilər cəlbedici ətirləri üstün tuturlar. Mənə görə insanı ətir tamamlayır. Ən cəlbedici ətirlər "İntense"(bargello), "Dior", "Jador", "Sasspiro" və s. əsas yer tutur. Ən bəyəndiyim isə "İntense" ətridir. Məncə sahibinin var olduğunu, diqqət mərkəzini zəbt etdiyini hər kəsə sübut edir. Həmin ətiri istifadə edənlər isə mənə görə olduqca özgüvənli, duyğuları talan edən kəslərdir. Ətir xoş abu-hava yaransın deyə və qarşı cinsin tam fikirlərini özlərinə çəkmək üçün ön planı tutur. Bir insanın yaddaşda əbədi qalması üçün ətir kifayət edir".

Şəhər sakini Fidan Nemətli: "Mən, freş ətirləri sevirəm. Yəni, nə tünd, nə də çox şirin. Bu ətirin haradan alındığından və hansı markanı aldığından asılıdır".

Şəhər sakini Ülviyyə Dəmirova: "Duxuları çox xoşlayıram. Nə qədər olsa vuraram. Şirin iylərə üstünlük verirəm. Ətirlər olmazsa olmaz".

Şəhər sakini Aysu Məmmədova: "Düşünürəm ki, tünd ətirlər qış, sərin ətirlər isə yay üçündür. Xahiş edirəm ki, yayda tünd ətirlər vurmasınlar. Bu çox iyrənc qoxu ortaya çıxarır".

***Ayşən Vəli***

# Yeni Azərbaycan Partiyası
## dünənin, bu günün və gələcəyin partiyasıdır



**44 günlük Şanlı Qələbəmizdən sonra bir-birinin ardınca tarixi günlərimizin ildönümlərini böyük sevinc və qürurla qeyd edirik. Bu gün də sevincli və qürurlu tarixi günlərimizdən olan Yeni Azərbaycan Partiyamızın 29-cu il dönümü ərəfəsindəyik. İlk dəfə 29 il şərəfli və uğurlu yol keçən Yeni Azərbaycan Partiyası il dönümünü 30 il həsrətində olduğumuz Qarabağ Azərbaycanımıza qovuşduğumuz Zəfər gününün bir ilinin qeyd olunduğu tarixi gündə qeyd edirik. Nəinki Azərbaycanın, Cənubi Qafqazın ən böyük siyasi təşkilatı olan Yeni Azərbaycan Partiyası hər zamankı kimi, demokratik ənənələrin inkişafına böyük töhfə verir.**

”91-lər”in müraciəti əsasında 1992 - ci ildə noyabrın 21-də Naxçıvanda Heydər Əliyevin sədrliyi və 550 nəfərdən ibarət təşəbbüs qrupunun iştrakı ilə yaranmışdır. 29 illik zəngin və şərəfli inkişaf yoluna malik olan Yeni Azərbaycan Partiyası ötən müddət ərzində ümumxalq partiyasına çevrilərək möhtəşəm nailiyyətlər əldə etmişdir. ugünkü nailiyyətlərimiz, bugünkü uğurlarımız, bugünkü iqtisadi, iyasi sahədə əldə etdiyimiz qələbəmiz, rdumuzun əldə etdi qələbələr əlbətdəki, Ulu Öndər Heydər Əliyevin müəyyənləşdirdiyi strategiyaya söykənir. O strategiyanı uğurla həyata keçirən Prezident İlham Əliyev (yuxarıda sadaladıqlarımız) bütün bu nailiyyətlərin əldə olunmasına bir başa rəhbərlik edir. Bu gün dünənin, bu günün və gələcəyin olan Yeni Azərbaycan Partiyası ictimai-siyasi zərurətdən yaranan ümumxalq partiyasıdır. İlk növbədə vurğulamaq gərəkdir ki, YAP ictimai-siyasi zərurətdən yaranan ümumxalq partiyasıdır. Həmin dövrdə ölkəmizdə hökm sürən xaos, anarxiya və hərc-mərclik Azərbaycanın öz müstəqilliyini itirmək təhlükəsi ilə üzləşməsinə səbəb olmuşdu. Hakimiyyətdə olan səriştəsiz qüvvələr ölkəni dərin siyasi böhrandan xilas etmək iqtidarında deyildi. Və belə bir zaman Yeni Azərbaycan Partiyasının yaranmasını zəruri etdi. Belə bir şəraitdə 91 nəfər ziyalı yeni yaranacaq Yeni Azərbaycan Partiyasına rəhbərlik etməyə razılıq verməsi üçün 1992-ci il oktyabrın 16-da ”SƏS” qəzetində ulu öndər Heydər Əliyevə müraciət etdilər. Həmçinin, ümummilli lider Heydər Əliyevin ziyalılara göndərdiyi 24 oktyabr 1992-ci il tarixli cavab məktubu da ”SƏS” qəzetində dərc olundu. Ulu Öndər Yeni Azərbaycan Partiyasının yaradılmasına və ona rəhbərlik etməyə razılıq verdi. 1992-ci il noyabrın 21-də Naxçıvanda keçirilən təsis konfransında Yeni Azərbaycan Partiyası təsis edildi və Ulu öndər Heydər Əliyev partiyanın Sədri seçildi. Ümummilli lider Heydər Əliyevin rəhbərlik etdiyi Yeni Azərbaycan Partiyası qısa müddət ərzində təşkilatlandı, xalqın dəstəyi ilə 1993-cü ildə hakimiyyətə gəldi. Və yarandığı gündən YAP-ın ümummilli lider Heydər Əliyev tərəfindən müəyyənləşdirilən və uğurla tətbiq edilən əsas proqram məramı Azərbaycanın dövlət müstəqilliyinin qorunub möhkəmləndirilməsindən, ərazi bütövlüyünün təmin edilməsindən, demokratik, hüquqi, dünyəvi cəmiyyət qurulmasından, əmin-amanlıq, ictimai-siyasi sabitlik, milli həmrəylik, güclü və sosialyönümlü iqtisadiyyat yaratmaqdan ibarət olub və partiyamız bu 29 ildə öz məqsədlərinə uyğun fəaliyyət göstərib.

### Tarixi və siyasi əsaslara söykənən Yeni Azərbaycan Partiyası

Ümumiyyətlə, tarixi faktlar və reallıqlar göstərir ki, Yeni Azərbaycan Partiyası zəngin və şərəfli inkişaf yoluna malikdir. Səmərəli fəaliyyətin və yüksək siyasi nüfuzun qanunauyğun nəticəsi kimi ümumxalq partiyasına çevrilən, 760 mindən çox üzvü olan YAP bu müddət ərzində ölkədə keçirilən prezident, parlament və bələdiyyə seçkilərində inamlı qələbələr qazanıb. Eyni zamanda, ötən müddət ərzində YAP-ın keçirdiyi qurultaylarda (1999, 2001, 2005, 2008, 2013) qəbul etdiyi tarixi qərarlar ölkəmizin gələcək inkişaf perspektivlərinin müəyyənləşdirilməsi baxımından mühüm rol oynayıb. Bu 29 il ərzində YAP-ın fəaliyyəti, ideyaları, apardığı siyasət göz önündədir. Gələn il yaranmasının 30 illiyi tamam olacaq partiya ötən müddət ərzində uğurla inkişaf edib və bütün seçkilərdə - həm parlament, həm prezident seçkilərində böyük səs çoxluğu ilə qalib gəlib. Bu gün Azərbaycanda YAP-a rəqib ola biləcək hər hansı bir siyasi qüvvə mövcud deyil. Prezidentin də söylədiyi kimi, YAP sözün əsl mənasında ümumxalq partiyasına çevrilib. Cəmiyyətimizin bütün təbəqələri hakim partiyada birləşib. YAP nəinki Azərbaycanın, Cənubi Qafqazın ən böyük siyasi təşkilatıdır. Partiyanın böyük ənənələri var.

Dünənin, bu günün və gələcəyin partiyası olan Yeni Azərbaycan Partiyasının Sədri, Prezident İlham Əliyev partiyyanın VI qurultayında çıxışında bildirmişdir: ”Bu gün Azərbaycanda bizim partiyamıza rəqib ola biləcək hər hansı bir siyasi qüvvə mövcud deyil”.

Dövlət başçımız onu da vurğulamışdı ki, partiyamızın VI qurultayından üç il ötür: ”Bu illər ölkəmiz üçün, bölgəmiz üçün həlledici illər olmuşdur. Üç il ərzində ölkə həyatında bir çox önəmli hadisələr baş vermişdir. Təbii ki, onların arasında ən önəmlisi ərazi bütövlüyümüzün bərpa edilməsi, Vətən müharibəsində parlaq Qələbənin qazanılmasıdır. Azərbaycan öz ərazi bütövlüyünü bərpa etdi, tarixi ədaləti bərpa etdi, işğalçıları əzəli torpaqlarımızdan qovdu və beləliklə, tarixi ədalət bərpa olundu. Bizim şanlı Qələbəmiz qürur mənbəyimizdir”.

Prezident, YAP-ın Sədri İlham Əliyev partiyanın bu ilin martın 5-də keçirilən VII qurultayda geniş, dərin məzmunlu və proqram xarakterli çıxış edərək əldə edilən uğurları, aparılan hərtərəfli islahatları dəyərləndirdi və gələcək fəaliyyətlə bağlı istiqamətləri, konturları göstərdi və partiyanın VII qurultayının keçirilməsi zərurətini yaranmış yeni reallıqların tələbi kimi dəyərləndirdi.

### Yeni Azərbaycan Partiyasının VII qurultayı siyasi həmrəyliyin, milli birliyin əyani təzahürüdür

Ən əsası isə, Yeni Azərbaycan Partiyasında 6 siyasi partiyanın YAP-a qoşulmasına dair qərar qəbul edilməsi mühüm hadisə olmaqla, həm də bu, siyasi həmrəyliyin, milli birliyin əyani təzahürü oldu. Partiyaların YAP-a birləşməsi cəmiyyətdə iqtidara qarşı olan müsbət münasibətin və inamın göstəricisi kimi də qiymətləndirilə bilər. Əlbəttə ki, bu, ölkədə dialoq mühitinin dərinləşməsinə və demokratik ənənələrin şaxələnməsinə xidmət edəcək. Qurultayda dövlət başçımız unu çox önəmli, əlamətdar hadisə adlandıraraq ölkədə siyasi sistemin təkmilləşdirilməsi istiqamətində atılan növbəti addım kimi qiymətləndirdi. Bu, eyni zamanda göstərir ki, partiyanın məramı, proqramı, fəaliyyəti və əldə etdiyi nailiyyətlər dost partiyalar üçün də cəlbedicidir. Lakin sifarişlə fəaliyyət göstərən, təlimatla çıxış edən özünü ”siyasətçi” adlandıran antimilli ünsürlərlə mübarizə aparmaq həm ölkə daxilində, həm də ölkə xaricində yaşayan siyasi mənsubiyyətindən asılı olmayaraq hər bir azərbaycanlının vətəndaşlıq borcudur.

Bir sözlə, dünənin, bu günün və gələcəyin partiyası olan Yeni Azərbaycan Partiyası böyük ənənələrlə bundan sonra da ölkəmizdə gedən bütün proseslərin mərkəzində olacaq. Partiyamızın üzvləri yeni mərhələdə ictimai-siyasi proseslərdə daha fəal iştirak etməklə, ölkəmizin inkişafına, xüsusilə işğaldan azad edilmiş ərazilərimizdə həyata keçirilən quruculuq işlərinə öz töhfələrini verəcəklər. Çünki dünənin, bu günün və gələcəyin partiyası olan Yeni Azərbaycan Partiyası zamanın sınaqlarından çıxmış, xalqın etimadını layiqincə doğrultmuş partiyadır

***RAMİZ ŞABANOV,***
***YAP Tərtər rayon təşkilatının sədrinin səlahiyyətlərini icra edən***

## Ərdoğanla İsrail Prezidenti arasında telefon danışığı olub



**Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanla İsrail Prezidenti İshak Hersok arasında telefon danışığı olub. SİA “Habetürk”ə istinadən xəbər verir ki, dövlət başçıları ikitərəfli əlaqələri müzakirə ediblər. Həmçinin İsrail Prezidenti Türkiyədə R.T.Ərdoğanın iqamətgahının fotolarını çəkməkdə ittiham olunan israilli cütlüyün azadlığa buraxılmasında vacib rol oynadığına görə türkiyəli həmkarına təşəkkür edib. R.T.Ərdoğan isə İsraillə əlaqələrə əhəmiyyət verdiyini vurğulayıb.**

## Məlahət İbrahimqızı:
# “YAP bölgəmizin ən güclü partiyasıdır”



“Həqiqətən də etiraf etməliyik ki, noyabr ayı, xalqımızın taleyində və dövlətçilik tariximizdə ən əlamətdar hadisələrlə dolu olan aydır. 8 noyabr Vətən müharibəsində qazandığımız möhtəşəm Zəfər Günü, 9 noyabr Dövlət Bayrağı Günü, Azərbaycanın qalibiyyətinin və Ermənistanın məğlubiyyətini-təslimçiliyini özündə etiva edən sənədin imzalandığı 10 noyabr, 12 noyabr Konstitusiya Günü, 17 noyabr Dirçəliş Günü, 21 noyabr YAP-ın yaranması günü, 20 noyabr Ağdamın işğaldan azad olunması və s. Məhz noyabr ayının əlamətdar və əziz günlərlə dolu bayramlar ayına çevrilməsi mənsub olduğumuz Partiyamızın iqtidarı ilə olmuşdur”. Bu fikirləri millət vəkili Məlahət İbrahimqızı böyük qələbələr qazanmış Yeni Azərbaycan Partiyasının yaranmasının 29-cu ildönümü ilə bağlı ”Səs” qəzetinə açıqlamasında bildirib.

Məlahət İbrahimqızı bildirib ki, tarixə qızıl hərflərlə yazılmış bu hadisələr YAP-ın bütün zamanlarda xalqın və dövlətin milli maraqlarına xidmət etdiyini sübut edir: ”Ötən dövrlər və bu gün Müdrik Liderimiz, bütün mənalı həyatını ölkəmizin çiçəklənməsinə, dövlətimizin güclənməsinə həsr etmiş, Ulu Öndərimizin uzaqgörənliklə söylədiyi ”YAP dünənin, bugünün və gələcəyin partiyasıdır” fikirləri artıq gerçək həyatda sübut edilmişdir. Bu gün müzəffər xalqımız YAP-a ümumxalq partiyası kimi baxır. Fəxrlə deməliyik ki, Partiyamızın Lideri ölkəmizin Silahlı Qüvvələrinin müzəffər Ali Baş Kamandanıdır. 44 günlük Vətən müharibəsində qazanılmış Zəfər dövlətimizin rəhbərinin qüdrəti, nüfuzu, prinsipiallığı, qətiyyəti, yüksək dövlət idarəçiliyi və diplomatik gücü, xalqının və Milli Ordunun ona olan inamı və sarsılmaz birliyinin nəticəsidir. Bu mənada bu möhtəşəm qələbədə sözsüz ki, iqtidar partiyası olan YAP-ın böyük rolu və payı vardır. Bildiyimiz kimi, YAP-ın üzvlərinin əksəriyyəti gənclərdir. Bu partiya ötən dövr ərzində öz işini, nizamnamə və proqramını zamanın tələbinə uyğunlaşdırmışdır. Son illərdə ölkəmizdə Möhtərəm Prezidentimiz Cənab İlham Əliyevin rəhbərliyi ilə həyata keçiriləm uğurlu islahatlarda partiyamızda da əsaslı dəyişikliklər baş vermişdi. Bütün bu dəyişikliklər dövrün tələblərindən irəli gəlirdi. YAP bölgəmizin ən güclü partiyasıdır”.

Millət vəkili Yeni Azərbaycan Partiyasının zəngin keçmişi olan partiya olduğunu diqqətə çatdırdı. Bu illər ərzində Ulu Öndər Heydər Əliyev ideyalarına sadiq olan və bu ideyalar əsasında fəaliyyət göstərən YAP Möhtərəm Prezidentimiz Cənab İlham Əliyevin Sədrliyi ilə böyük inkişaf yolu keçib: ”Bu partiya çağdaş müstəqil dövlətimizin qurucusu Ulu Öndərimiz Heydər Əliyevin parlaq ideyaları və müdrik siyasəti, xeyir-duası ilə yaranmışdır ki, xalqlmızın ən ağır çətin günlərində dəfələrlə sınaqdan keçmiş, xalqını və dövlətini fəlakətdən və parçalanmaqdan qorumuş xilaskar bir partiyadır. Qeyd etdiyim kimi, hazırda bu partiyanın Lideri xalqın Müzəffər Sərkərdəsi İlham Əliyevdir. 2003-cü ildən bugünədək hətta beynəlxalq aləmdə böyük uğurlara imza atmış, dövlətinə və xalqına misilsiz uğurlar qazandırmış bir partiyadır. Heç də sirr deyil ki, səkkiz yüz minə yaxın üzvü olan partiyamızın hər bir üzvü mənsub olduğu partiya ilə qürur duyur. Bu gün gənclər kütləvi olaraq bu partiyaya üzv olmaq üçün müraciətlər edir. Onlar çox gözəl bilirlər ki, ölkəmizin və dövlətimizin parlaq gələcəyi Yeni Azərbaycan Partiyası ilə bağlıdır və bu partiyanın alternativi yoxdur”.

Əminik ki, bu günlərdə ad gününü qeyd edəcəyimiz Yeni Azərbaycan Partiyası iqtidar partiyası olaraq bundan sonra da şərəf və ləyaqətlə xalqına və dövlətinə xidmət edəcəkdir, - deyə millət vəkili bildirib.

***Nəzakət ƏLƏDDİNQIZI***

# Azərbaycan ədliyyəsinin hamisi - HEYDƏR ƏLİYEV

**Noyabr ayının 22-si respublikamızda ədliyyə işçilərinin - Penitensiar xidməti əməkdaşlarının, məhkəmə ekspertizası, məhkəmə icraçıları və nəzarətçilərinin, Vətəndaşlıq Aktlarının Qeydiyyatı və digər müqabil işçilərin peşə bayramı kimi qeyd olunur. Ədliyyə işçilərinin peşə bayramı 21 il öncə - 2000-ci il noyabrın 11-də ümummillli lider Heydər Əliyevin imzaladığı qərarla təsis edilib. Bu, Ümummilli liderin ədliyyə işçilərinə qayğı və ehtiramının təzahür formalarından biridir.**

Tarixi nöqteyi-nəzərdən yanaşsaq, Azərbaycan ədliyyəsinin yaranması 103 il əvvələ - Azərbaycan Xalq Cumhuriyyətinin təməl daşının qoyulduğu 1918-ci ilin 28 may gününə təsadüf edir. Nazirliyin Əsasnaməsi isə 6 ay sonra - 1918-ci il noyabrın 22-də təsdiq edilib. Azərbaycan ədliyyəsi XX əsrin 70-ci illərinə qədər çətin, keşməkeşli ömür yaşayıb. Belə ki, 1920-ci ilin 28 aprelində işğalçı XI Qızıl Ordu hissələrinin Şərqdə ilk demokratik dövlət olan Azərbaycan Xalq Cümhuriyyətini devirməsi, AXC-nin dövlət qurumu olan Ədliyyə Nazirliyinin də fəaliyyətinin dayandırılması ilə nəticələnib. Sonrakı XX əsrin 70-ci illərinə qədərki dövrdə Ədliyyə Nazirliyinin 5 dəfə müxtəlif adlar altında fəaliyyət göstərməsi, başqa sözlə, ədliyyə orqanlarının təkrar-təkrar ləğv edilib yenidən yaradılması kimi bir hal ədliyyə sisteminin formalaşması imkanlarını məhdudlaşdırmış, nazirliyin sabit dövlət strukturu olaraq inkişafına ciddi əngəllər törətmişdir. Belə ki, Sovet Rusiyasının XI Qızıl Ordu hissələri AXC-ni işğal edəndən sonra İnqilab Komitəsinin 13 may 1920-ci il tarixli qərarı ilə AXC-nin Ədliyyə Nazirliyi ləğv edilmiş, əvəzində Xalq Ədliyyə Komissarlığı yaradılmışdır. 1930-cu ildə Xalq Ədliyyə Komissarlığı ləğv edilərək onun funksiyaları prokurorluğa, Ali Məhkəməyə, Mərkəzi İcraiyyə Komitəsinə və bir sıra başqa qurumlara həvalə edilmişdir. 1933-cü ildə isə yenidən Xalq Ədliyyə Komissarlığı təşkil edilmişdir. Onun səlahiyyətinə qanun layihələrinin hazırlanması, qanunların şərhi, məhkəmə kadrlarının hazırlanması, əhaliyə hüquqi yardımın təşkili, penitensiar sistemin idarə olunması, Ali Məhkəməyə, Dövlət Prokurorluğuna və vəkillərə rəhbərlik etmək daxil idi. 1937-ci ildə yenidən yaradılan Xalq Komissarlığının Əsasnaməsinə əsasən komissarlığın fəaliyyət sahəsi yalnız məhkəmə və notariat orqanlarının işinin təşkili və onlara rəhbərliklə məhdudlaşmışdır. 1959-cu ildə Xalq Ədliyyə Komissarlığı yenidən ləğv edilmiş, onu səlahiyyətləri yenidən ayrı-ayrı dövlət qurumları arasında bölüşdürülmüşdür.

Bu ədalətsizliyə 1970-ci illərdə, Azərbaycan xalqının qürur ünvanı olan Heydər Əliyevin hakimiyyəti zamanında son qoyulmuşdur. Öz fəaliyyətində "Ədaləti ədalətsizliklə bərpa etmək omaz" prinsipini daim rəhbər tutan Ulu öndərin tövsiyəsi ilə Azərbaycan SSR Ali Sovetinin 1970-ci il oktyabrın 27-də qəbul etdiyi qərar Azərbaycan ədliyyəsinin tarixində yeni mərhələnin başlanğıcı kimi yaddaqalandır. Bu qərarla Ali Məhkəmə istisna olmaqla indi bizə məlum olan bütün funksiyalar Ədliyyə Nazirliyinin səlahiyyətinə verilmişdir. Məhz bu illərdə Ulu öndərin apardığı məqsədyönlü islahatların nəticəsi olaraq Azərbaycan ədliyyəsi özünün inkişaf mərhələsinə qədəm qoymuşdur.

Dövlət strukturu kimi təşəkkül tapması nazirliyin fəaliyyətində milli kadrların formalaşdırılması, davamlı olaraq inkişafı məsələləri daim Ümummilli liderin diqqət mərkəzində olmuşdur. 1972-ci ildə Heydər Əliyev tərəfindən qüvvəyə minən yeni əsasnamə Azərbaycan ədliyyəsinin gələcək inkişafına yol açan bir sıra yeni normativ sənədlərin qəbul edilməsinə imkan yaratmışdır. Bu qərardan sonra Ədliyyə Nazirliyinin funksiya və səlahiyyətləri daha da genişlənmiş, Ədliyyə Akade-





miyası, regional ədliyyə idarələri, xüsusi notariat institutu və probasiya xidməti formalaşdırılmış, elektron reyestrlər və informasiya sistemləri yaradılmaqla vətəndaşların ədliyyə təsisatlarına çıxışı xeyli asanlaşmışdır.

Azərbaycan ədliyyəsinin yenidən formalaşdırılması işi, nə qədər riskli olmasına baxmayaraq, həm sovetlər dönəmində, həm də müstəqillik illərində daim Ulu öndərin diqqətində olmuşdur. Ölkəmiz 70 illik ilhaqdan azad edildikdən sonra Ədliyyə Nazirliyinin hüquqi dövlətdə ona məxsus "mövqe sahibi" olması üçün imkanlar daha da genişlənmişdir. Ədliyyə sisteminin fəaliyyətini tənzimləyən bir sıra yeni normativlərin qəbulu nazirliyin gələcək inkişafı üçün əsaslı zəmin yaratmışdır.

Ana qanunun - Konstitusiyamızın yaradılması ilə başlanan köklü islahatlar Penitensiar xidmət sahəsində də diqqət və qayğı ilə davam etdirilmişdir. Məhkəmə qərarlarının icrası işinin əhəmiyyəti nəzərə alınaraq nazirliyin tərkibində icra xidməti və istintaq idarəsinin yaradılması, ibtidai istintaqın aparılması işinin Daxili İşlər Nazirliyindən alınıb Ədliyyə Nazirliyinə həvalə edilməsi, cəza-tərbiyə işində humanizm, ən əsası isə insan hüquq və azadlıqlarının qorunması işinin önə çəkilməsi ilə məhkəmə qərarlarının icrası sistemi təkmilləşmişdir.

Bu sırada həmçinin beynəlxalq hüquq və azadlıqlara söykənən ölüm hökmünün ləğvi ilə bağlı qərarın da (1998-ci il) adını çəkmək olar. Həmin qərar nəticəsində məhkumların saxlanma şəraiti beynəlxaq standartlar səviyyəsinə çatdırılmışdır. Onların sosial əlaqə imkanları genişləndirilmiş, asudə saatlarını səmərəli keçirmələri işi beynəlxalq tələblər səviyyəsinə uyğunlaşdırılmışdır. Qeyd olunanlara məhkumlar üçün futbol meydançaları tikilməsini, onların bu meydançalardan vaxtaşırı istifadə etməklərini, kitabxanalardan bəhrələnmək imkanının yaradılmasını, yeniyetmələr üçün "açıq qapı" günlərinin keçirilməsini də (və s.) əlavə etmək olar.

Azərbaycan Respublikasının ədliyyə naziri, Məhkəmə-Hüquq Şurasının sədri, I dərəcəli dövlət ədliyyə müşaviri Fikrət Məmmədovun qənaətləri ilə fikrimizi davam etdirsək, "Hüquq islahatlarının, xüsusən ölkədə ədalətin bərqərar edilməsi üçün məhkəmə-hüquq islahatlarının bügünki Azərbaycan üçün daha böyük önəm kəsb etdiyini bəyan edən Ümummilli liderimiz tərəfindən bu islahatlar uğurla həyata keçirilmiş, 1995-ci ildə qəbul edilmiş ilk milli Konstitusiyamız, Hüquqi İslahat Komissiyasının yaradılması və səmərəli fəaliyyəti, qısa müddətdə məhkəmə və hüquq mühafzə orqanlarının fəaliyyətini tənzimləyən yeni qanunvericilik aktlarının qəbulu ölkədə ədliyyə sisteminin sürətli inkişafına zəmin yaratmış, Ədliyyə Nazirliyinin fəaliyyətində əsaslı dəyişikliklər aparılaraq nazirlik dövlətin hüquq siyasətini həyata keçirən əsas orqanlardan birinə çevrilmişdir".

Bütün bunlar haqq verir ki, ulu öndər Heydər Əliyevi Azərbaycan ədliyyəsinin qurucusu və hamisi adlandıraq.

Qürurla deyə bilərik ki, Azərbaycan ədliyyəsi bu gün inamlı inkişaf yolundadır. Ulu öndərin siyasi kursunu yüksək səviyyədə davam etdirən Azərbaycan Prezidenti İlham Əliyevin müdrik dövləti idarəetmə səriştəsinin nəticəsi olaraq Azərbaycan ədliyyəsi məhkəmə-hüquq islahatları çərçivəsində müasirləşərək yeni nailiyyətlərə imza atmaqdadır.

Müstəqillik dövründə ilk dəfə olaraq dövlət başçısı İlham Əliyevin 2006-cı il 18 aprel tarixli fərmanı ilə Ədliyyə Nazirliyi haqqında Əsasnamə təsdiq edilərək ona hüquq-mühafizə statusunun verilməsi, həmin il may ayının 26-da "Ədliyyə orqanlarında qulluq keçmə haqqında" Azərbaycan Respublikası Qanununun qəbul edilməsi, 2019-2023-cü illər Dövlət Proqramlarının təsdiqi haqqında bəhs etdiyimiz inkişafın bariz göstəricilərindəndir.

Hər bir Azərbaycan vətəndaşı, o cümlədən biz - ədliyyə işçiləri də dövlət başçısı İlham Əliyevin ətrafında sıx birləşərək Ümummilli liderin ideyalarının həyata keçməsi və inkişafı üçün əlimizdən gələni əsirgəməməliyik.

Ümummilli lider Heydər Əliyev deyirdi: "Hər bir hüquq-mühafizə orqanında çalışan əməkdaş öz işinin dövlət, xalq üçün nə qədər vacib olduğunu dərk etməlidir və işini yalnız və yalnız xalqın, ölkənin mənafeyi üçün aparmalıdır".

Penitensiar xidmətin əməkdaşı olaraq hər birimiz bu məsuliyyəti daim öz üzərimizdə hiss edir və bu məsuliyyətə cavabdehlik daşıdığımızı özümüzə borc bilirik.

***Babək İsgəndərov, Ədliyyə Nazirliyi Penitensiar Xidmətinin Kadrlar idarəsinin böyük inspektoru, ədliyyə mayoru***



## "Düşünmürəm ki, Ermənistan uzun müddət prosesiləngitməyi bacaracaq"

**"Ermənistan artıq uzun müddətdir ki, həm Azərbaycanla həmsərhəd ərazilərdə, həm də separatçı tör-töküntülər vasitəsi ilə Rusiya sülhməramlılarının müşahidəsi altında olan Azərbaycan torpaqlarında təxribatlarını davam etdirir. Bu təxribatların da ayrı-ayrılıqda səbəbləri var". Bunu SİA-ya açıqlamasında siyasi şərhçi Elçin Mirzəbəyli deyib.**



O, qeyd edib ki, Ermənistanın əsas məqsədi sərhəd bölgəsində yüksəkliklərə sahiblənmək və delimitasiya, demarkasiya prosesində üstün mövqeyə yiyələnməkdən ibarətdir. Təbii ki, Ermənistan bu prosesin ləngidilməsinə, eyni zamanda prosesə üçüncü qüvvələrin cəlb olunmasına çalışır. Daha öncə də biz belə addımların şahidi olmuşduq. 44 günlük müharibədən öncə Tovuz döyüşləri zamanı da Ermənistan eyni taktikanı seçərək Azərbayacana qarşı hərbi aventura törətmişdi. Bu aventura hərəkatının qarşısı da Azərbaycan Ordusu tərəfindən alınmışdı. İndiki şəraitdə də eyni senarinin şahidi olduq.

Elçin Mirzəbəyli bu barədə fikirlərini belə izah edib: "Təbii ki, Ermənistan tərəfi daha böyük itki verərək faktiki olaraq geriyə çəkildi. Biz indi Ermənistan tərəfindən müəyyən bəyanatların verildiyinin şahidi oluruq. Amma Ermənistan tərəfinin istənilən bəyanatından asılı olmayaraq, 10 noyabr sazişində göstərilən müddəalara əsasən üzərlərinə götürdükləri öhdəliklər var. Bu öhdəliklərin həyata keçirilməsində Rusiya zəmanətçi qismindədir. Bu prosesdə Rusiyanın aktiv rol alması, Ermənistan tərəfinin təxribatlarına son qoymaq üçün müvafiq qaydada həmin ölkə ilə iş aparılması, hesab edirəm ki, vacib şərtlərdən biridir. Ermənistana qarşı Azərbaycanın kifayət qədər təzyiqli rıçaqları var. Bu təzyiq rıçaqlarından Azərbaycanın istənilən an istifadə etmək imkanı var. Prosesin belə davam etməsi halında 10 noyabr bəyanatının müddəalarının icrasında müəyyən ləngimələr olacaq. Bu ləngimələr də bütövlükdə regionda sülhə, əmin-amanlığa manеə törətməklə yanaşı Ermənistanın özünün də əleyhinədir. Hazırda ətrafdan təcrid olunmuş, eyni zamanda Azərbaycanın işğal altında olan ərazilərinin azad edilməsi ilə bütün təbii resurslardan əli üzülmüş Ermənistanın iqtisadiyyatının dirçəlməsi üçün bu ölkənin tranzit ölkəyə çevrilməkdən başqa yolu yoxdur. Tranzit ölkəyə çevrilmək üçün isə eyni zamanda kommunikasiya xətləri açılmalı, bəyanatda göstərilən layihələrin həyata keçirilməsi, Zəngəzur dəhlizinin açılması üçün təxirə salınmaz addımlar atılmalıdır. Paradoksal görünsə də, Ermənistanın yeganə çıxış yolu bu ölkənin siyasi rəhbərliyinin radikal milliyətçi qüvvələrin əleyhinə çıxdığı məqamlardan asılıdır. Mən düşünmürəm ki, Ermənistan uzun müddət prosesi ləngitməyi bacaracaq. Konkret bir zaman kəsiyində öz üzərinə düşən vəzifəni yerinə yetirməyə məcbur olacaq".

***Turqay Musayev***

# Xalqımız Şəhidlərin əziz xatirəsini daima əziz tutur!

## Oğuz rayonunda üç şəhidin xatirəsi anılıb

YAP Oğuz rayon təşkilatının əməkdaşları və fəalları Vətən müharibəsində şəhidlik zirvəsinə ucalan üç qəhrəman şəhidin - Zaməddinov Fərid İmran oğlunun, Lətifov Rəvan Ömür oğlunun, Rəhimli Orxan Rəşid oğlunun noyabrın 16-da anım mərasimləri keçirilib. Ziyarətçilər şəhidlərin uyuduqları Oğuzun Şəhidlər Xiyabanındakı məzarlarını ziyarət edərək, əziz xatirələrini yad edib, ruhlarına dualar oxunub.



Daha sonra partiya təşkilatının əməkdaşları və fəalları şəhidlərimizin ailələrini ziyarət edərək, ailə üzvlərinə dərin hüznlə başsağlığı verib, onların qayğı və problemləri ilə maraqlanıblar. Şəhid ailələri göstərilən diqqət və qayğıya görə Prezident İlham Əliyevə və Birinci vitse-prezident Mehriban xanım Əliyevaya minnətdarlıqlarını bildiriblər.



Fərid Zaməddinov 2016-cı ilin Aprel döyüşlərində savaşıb. Azərbaycan Ordusunun giziri olan Fərid Zaməddinov 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistanın işğalı altında olan ərazilərimizin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsi zamanı Murovdağ döyüşlərində, həmçinin Talış qəsəbəsinin azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Fərid Zaməddinov Talış istiqamətində snayper gülləsi nəticəsində şəhid olub. Oğuz Şəhidlər Xiyabanında dəfn olunub. Fərid Zaməddinov Azərbaycan Prezidenti İlham Əliyevin müvafiq sərəncamlarına əsasən, ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edilib.

Şəhid Rəvan Lətifov 29 sentyabr 2020-ci ildə Milli Ordu sıralarına qoşulmuşdur. Bir ay ərzində Gəncə şəhərinin "N" saylı hərbi hissəsində təşkil edilən intensiv hərbi təlimlərdə iştirak etdikdən sonra Qarabağ uğrunda gedən aktiv hərbi əməliyyatlara qoşulmuşdur. 29 oktyabr tarixində Tank əleyhinə batareyanın əsgəri vəzifəsində Füzuli rayonunun İkinci Mahmudlu kəndinin düşmən işğalından azad edilməsində iştirak etmişdir. 2020-ci ilin 6 noyabr tarixində Şuşa şəhərinin işğaldan azad olunması əməliyyatında fəal iştirak edərək, döyüş tapşırıqlarını uğurla yerinə yetirmiş, düşmənin əsas qruplaşmalarını və texnikasını məhv etməklə, qoşunlarımızın döyüş qabiliyyətinin qorunub saxlanılmasında fərqlənmişdir.

Rəvan Lətifov Azərbaycan Prezidenti İlham Əliyevin müvafiq sərəncamlarına əsasən, ölümündən sonra "Vətən uğrunda", "Cəsur döyüşçü" "Şuşanın azad olunmasına görə" medalı ilə təltif edilib.

Azərbaycan Ordusunun əsgəri olan Orxan Rəhimli 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən erməni təcavüzkarlarının işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsi zamanı Cəbrayıl, Füzuli və Şuşa uğrunda gedən döyüşlərdə savaşıb. Döyüşlər zamanı bir neçə dəfə yaralansa da, döyüş meydanını tərk etməyib. Orxan Rəhimli noyabrın 8-də Şuşa-Xankəndi istiqamətində şəhid olub. Noyabrın 16-da Oğuz rayonunun Xaçmaz kənd Şəhidlər Xiyabanında dəfn olunmuşdur.

Prezident İlham Əliyevin müvafiq sərəncamlarına əsasən, Orxan Rəhimli ölümündən sonra "Vətən uğrunda", "Cəsur döyüşçü", "Şuşanın azad olunmasına görə" medalları ilə təltif edilib. Şəhidlərimizin hər birinin xatirəsi xalqımız üçün əzizdir. Bütün şəhidlərimizə Allah rəhmət eləsin, ruhları şad olsun.

***ZÜMRÜD BAYRAMOVA***



## YAP Biləsuvar rayon təşkilatının əməkdaşları Şəhid ailələrini ziyarət edib



Yeni Azərbaycan Partiyası Biləsuvar rayon təşkilatının əməkdaşları və fəalları 18 noyabr 2021- ci il tarixdə Vətən müharibəsində vətənimizin müdafiəsi uğrunda öz canından keçən Biləsuvar rayon Əliabad kəndindən olan şəhid İsayev Rahət Rafət oğlunun və Günəşli kəndindən olan şəhid Baloğlanlı Elşad Elşən oğlunun ildönümləri ilə əlaqədar olaraq ailələrini ziyarət ediblər. Daha sonra şəhidlərin məzarları ziyarət edilib və dərin ehtiramla yad edilərək üzərlərinə tər gül dəstələri düzüblər.

Allah rəhmət eləsin!

***Rəfiqə***

## Samux rayonunda şəhidin ildönümü qeyd olunub



Noyabrın 19-da 44 günlük Vətən müharibəsində şəhid olmuş Samux şəhər sakini Hümbətov Nürəddin İlqar oğlunun ildönümü qeyd olunub. Bu münasibətlə şəhidin doğulub-böyüdüyü və ailəsinin yaşadığı Samux şəhərində mərasim keçirilib. Mərasimdə Samux rayon İcra Hakimiyyətinin Başçısı Alı Qocayev, Yeni Azərbayan Pariyası Samux rayon təşkilatının sədri Gündüz Bayramov və partiya fəalları, rayon ictimaiyyətinin nümayəndələri, rayonun hüquq-mühafizə orqanlarının rəhbərləri, şəhid ailələrinin üzvləri, qazilər, müharibə iştirakçıları iştirak ediblər.



Vətənimizin ərazi bütövlüyü uğrunda canından keçmiş şəhidimizin məzarı ziyarət olunub, onun əziz xatirəsi ehtiramla anılıb, ruhuna dualar oxunub, döyüş yolu barədə söhbət açılıb, valideynlərinə və qohumlarına başsağlığı verilib. Qeyd edək ki, Hümbətov Nürəddin İlqar oğlu 16 dekabr 1998-ci ildə Samux rayonunun Samux şəhərində anadan olmuşdur. Azərbaycan Respublikasının ərazi bütövlüyü uğrunda başlayan Vətən müharibəsi dövründə cəbhəyə yola düşən Nürəddin Hümbətov Şuşa-Xocavənd istiqamətində gedən döyüşlərdə şəhidlik zirvəsinə yüksəlib. O, noyabrın 19-da doğma Samux şəhərində dəfn edilib. Ölkə Prezidenti, Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin müvafiq Sərəncamları ilə ölümündən sonra "Vətən uğrunda", "Döyüşdə fərqlənməyə görə", "Kəlbəcərin azad olunmasına görə" və "Şuşanın azad olunmasına görə" medalları ilə təltif olunub.

Allah bütün şəhidlərimizə rəhmət eləsin!

***İlham***

## YAP Qazax rayon təşkilatının fəalları şəhid Xaliddin Nəsibovun məzarını ziyarət ediblər



Yeni Azərbaycan Partiyasının Qazax rayon təşkilatının fəalları, rayon ictimayyətinin nümayəndələri Vətən müharibəsi şəhidi Nəsibov Xaliddin Vaqif oğlunun şəhid olmasının ildönümü ilə əlaqədar məzarını ziyarət ediblər. Ziyarətçilər şəhidin məzarı üstünə gül dəstələri düzmüş, ruhuna dualar oxumuşlar. Daha sonra Yeni Azərbaycan Partiyasının Qazax rayon təşkilatının fəalları şəhidin ailə üzvləri ilə görüşmüşlər.

***Rəfiqə***

# Yeni Azərbaycan Partiyası qələbələr partiyasıdır






**_Elbrus Quliyev, Dövlət Statistika Komitəsi Birləşmiş Həmkarlar İttifaqı Komitəsinin sədri_**

Azərbaycanın siyasi həyatında Yeni Azərbaycan Partiyasının müstəsna rolu vardır. Yaranmasının 29-cu ildönümü qeyd etdiyimiz YAP özünün tarixi missiyasına uyğun olaraq cəmiyyətimizdə ümumxalq partiyası statusunu qazanıb. Partiyanın yarandığı dövrdə ölkəmizdə hökm sürən xaos, anarxiya və hərc-mərclik Azərbaycanın öz müstəqilliyini itirmək təhlükəsi ilə üzləşməsinə səbəb olmuşdu. Hakimiyyətdə olan səriştəsiz qüvvələr ölkəni dərin siyasi böhrandan xilas etmək iqtidarında deyildi. Bu hadisənin fonunda ölkəmizin üzləşdiyi siyasi, iqtisadi böhran və tənəzzül meyilləri, həmçinin mənəvi-ideoloji kataklizmlər Yeni Azərbaycan Partiyasının yaranmasını zəruri etdi. Belə bir şəraitdə 91 nəfər ziyalı yeni yaranacaq Yeni Azərbaycan Partiyasına rəhbərlik etməyə razılıq verməsi üçün 1992-ci il oktyabrın 16-da Ulu Öndər Heydər Əliyevə müraciət etdi. Ümummilli Lider Heydər Əliyev ziyalılara göndərdiyi 24 oktyabr 1992-ci il tarixli cavab məktubunda Yeni Azərbaycan Partiyasının yaradılmasına və ona rəhbərlik etməyə razılıq verdi. 1992-ci il noyabrın 21-də Naxçıvanda 550-dən çox nümayəndənin iştirakı ilə keçirilən təsis konfransında Yeni Azərbaycan Partiyası yaradıldı və Ulu Öndər Heydər Əliyev partiyanın Sədri seçildi. Ümummilli lider Heydər Əliyevin rəhbərlik etdiyi Yeni Azərbaycan Partiyası qısa müddət ərzində təşkilatlandı, xalqın dəstəyi ilə 1993-cü ildə hakimiyyətə gəldi.

Yarandığı gündən YAP-ın Ümummilli lideri Heydər Əliyev tərəfindən müəyyənləşdirilən və uğurla tətbiq edilən əsas proqram məramı Azərbaycanın dövlət müstəqilliyinin qorunub möhkəmləndirilməsindən, ərazi bütövlüyünün təmin edilməsindən, demokratik, hüquqi, dünyəvi cəmiyyət qurulmasından, əmin-amanlıq, ictimai-siyasi sabitlik, milli həmrəylik, güclü və sosialyönümlü iqtisadiyyat yaratmaqdan ibarət olub və partiyamız ötən illər ərzində öz məqsədlərinə uyğun fəaliyyət göstərib.

YAP-ın yarandığı tarixi zamana, həmin vaxtlarda Azərbaycanda cərəyan edən hadisələrə nəzər saldıqda, YAP-ın cəmiyyətdə oynadığı rol daha aydın şəkildə özünün büruzə verir. Yeni Azərbaycan Partiyasının əldə etdiyi nailiyyətlər silsilə xarakter daşıyır və bugünkü uğurların ciddi tarixi və siyasi əsasları mövcuddur. YAP Ulu öndər Heydər Əliyevin ideyaları əsasında irəliləyərək böyük və şərəfli yol keçib. Əminliklə söyləyə bilərik ki, cəmiyyətin avanqard siyasi qüvvəsi kimi Yeni Azərbaycan Partiyası xalqımızın qarşısında duran vəzifələrin yerinə yetirilməsinə özünün layiqli töhfəsini verib və bu siyasət bu gün də uğurla davam etdirilir. Partiya öz səmərəli fəaliyyəti ilə Azərbaycanın inkişafına xüsusi töhfələr verir, ölkənin etibarlı gələcəyinin təmin olunmasında müstəsna rol oynayır.

Partiyamız yarandığı vaxtdan xalqımıza xidmət onun başlıca amalı olub. Ümummilli liderimiz Heydər Əliyevin müəyyən etdiyi dövlətçilik prinsipinə söykənən Yeni Azərbaycan Partiyası ölkəmizin ən qabaqcıl nümayəndələrini öz sıralarında birləşdirərək müstəqil Azərbaycan dövlətinin qurulması yolunda geniş, çoxşaxəli fəaliyyət göstərib.

Beləliklə, Yeni Azərbaycan Partiyası siyasi sistemin monolit gücü və avanqard siyasi institutudur. Başqa sözlə, YAP sahib olduğu resurslara, ictimai-siyasi nüfuzuna, özünün fəaliyyət mexanizminin səmərəlilik səviyyəsinə və siyasi sistemdəki avanqard yerinə görə Azərbaycanın siyasi palitrasının ən güclü və nüfuzlu partiyasıdır. YAP, eyni zamanda, ölkəmizdə siyasi mədəniyyətin və siyasi sistemin formalaşmasına, təkmilləşməsinə birbaşa, fundamental töhfələr verən ümumxalq partiyasıdır.

Partiyanın keçdiyi tarixi yoldan danışarkən YAP Sədri, Prezident İlham Əliyev bildirib: "Partiyanın çox böyük tarixi var, partiya Ulu Öndər Heydər Əliyev tərəfindən çox çətin, ağır şəraitdə yaranmışdır. Ondan sonra partiyanın bütün fəaliyyəti Azərbaycan xalqına xidmətdən ibarət olmuşdur. Bizim partiyamız müxalifətdə yaranmışdır. Yəni biz ilk fəaliyyətimizi müxalifət partiya kimi olaraq başlamışıq. Ancaq buna baxmayaraq, Azərbaycanın qarşısında duran bütün çətin vəzifələrin həlli işində bizim partiyamız çox fəal iştirak etmişdir. Bu bir daha onu göstərir ki, Yeni Azərbaycan Partiyası Azərbaycan dövlətçiliyini möhkəmləndirən və Azərbaycan dövlətçiliyini ən uca tutan partiyadır".

Ümumiyyətlə, faktlar və reallıqlar göstərir ki, Yeni Azərbaycan Partiyası zəngin və şərəfli inkişaf yoluna malikdir. Eyni zamanda təkzibolunmaz fakdlr ki, Yeni Azərbaycan Partiyasının formalaşmasında və inkişafında Heydər Əliyev siyasi məktəbinin layiqli davamçısı cənab İlham Əliyev amili əvəzsiz rol oynamışdır. Hələ Yeni Azərbaycan Partiyasının yeni yarandığı vaxtlarda cənab İlham Əliyev Azərbaycanın dövlət müstəqilliyini qoruyan, milli dövlətçilik əsaslarını möhkəmləndirən, respublikamızda demokratik ənənələrin təsbir olunmasına şərait yaradan ümummilli lider Heydər Əliyevin ən yaxın silahdaşı kimi çiynində daşıdığı ağır yükün məsuliyyətini yaxşı dərk edir, müstəqilliyi yeni qazanmış dövlətimizin rifahı üçün bütün qüvvə və bacarığını sərf etmişdir.

Xüsusi vurğulanmalıdır ki, partiyamızın yarandığı vaxtdan etibarən Azərbaycanda keçirilən bütün seçkilərdə parlaq qələbələr qazanması hər kəsə bəllidir. Burada diqqətçəkən məqam ondan ibarətdir ki, hər seçkidən-seçkiyə partiyamızın uğurlarının miqyası genişlənir və bu, seçkilərin nəticələrində də özünü aydın şəkildə ifadə edir. Ona görə də, Yeni Azərbaycan Partiyası cəmiyyətimizdə haqlı olaraq qələbələr partiyası statusunu da qazanıb.

Özündə yüksək intellektual potensialı birləşdirən YAP-ın sıralarında gənclər də böyük üstünlük təşkil edir və partiya sıralarına yeni qoşulanların mütləq əksəriyyəti də gənclərdən ibarətdir. Təkzibolunmaz faktdır ki, gənclərin partiyamıza axını Heydər Əliyev ideyalırna sadiq olmaqla yanaşı, İlham Əliyev amili ilə sıx bağlıdır. Ümumiyyətlə, Yeni Azərbaycan Partiyası hər zaman fəaliyyətində gənclərə geniş imkanların yaradılmasına, onlarda milli şüurun, vətənpərvərlik ruhunun formalaşdırılmasına xüsusi diqqət yetirib. Ulu öndərin siyasi kursunu bütün sahələrdə uğurla davam etdirən YAP Sədri, Prezident İlham Əliyevin və Onun rəhbərliyi ilə YAP-ın fəaliyyətinin prioritet istiqamətlərindən biri kimi, bu gün də Azərbaycan gənclərinin hərtərəfli inkişafı, ölkənin ictimai-siyasi, sosial-mədəni həyatındakı rolunun artması, idarəçilik strukturlarında geniş təmsil olunması xüsusi diqqət mərkəzindədir.

Yeni Azərbaycan Partiyasının 2021-ci il martın 5-də keçirilən VII qurultayı isə istər partiyanın, istərsə də ictimai-siyasi münasibətlər sistemimizin tarixində mühüm bir hadisə kimi yadda qaldı. Qurultayda partiyanın rəhbər strukturlarının yenidən formalaşdırılması ilə bağlı əhəmiyyətli qərarlar qəbul edildi. YAP-da kadr islahatları aparılaraq, Ümummilli Liderimiz Heydər Əliyevin yetişdirdiyi, mərd, mənəviyyatlı, işgüzar, ən əsası sədaqətli şəxslərin seçilməsi günün tələblərinə cavab verdi. YAP-ın yeni Nizamnaməsi təsdiq olundu, İdarə Heyəti, Təftiş Komissiyası, Veteranlar Şurası seçildi və bir sıra siyasi partiyaların Yeni Azərbaycan Partiyasına qoşulmasına dair müraciətlərinə baxıldı. Azərbaycan Prezidenti, Yeni Azərbaycan Partiyasının Sədri cənab İlham Əliyev çıxışı zamanı Ümummilli Liderimiz Heydər Əliyevin qurucusu olduğu Yeni Azərbaycan Partiyasının keçdiyi tarixi inkişaf yoluna nəzər saldı, qarşıda duran vəzifələri diqqətə çatdırdı, mühüm fikirlər səsləndirdi. Prezident İlham Əliyev onu da vurğuladı ki, Yeni Azərbaycan Partiyası nəinki Azərbaycanın, Cənubi Qafqazın ən böyük siyasi partiyasıdır: "Partiyamızın böyük ənənələri var. Qeyd olunduğu kimi, biz gələn il, partiyamızın 30 illik yubileyini keçirəcəyik. Hesab edirəm ki, partiya yeniləşmiş formatda, o cümlədən rəhbər orqanlarında təmsil olunan namizədləri nəzərə alsaq daha fəal olacaq, ölkə qarşısında duran problemləri daha fəal icra edəcəkdir".

Əlbəttə, ötən müddət ərzində zəngin və şərəfli inkişaf yolu keçən Yeni Azərbaycan Partiyasının VII qurultayının keçirilməsi bir sıra zəruri amillərlə əlaqədardır. Hər şeydən öncə qeyd etmək lazımdır ki, Yeni Azərbaycan Partiyasının qurucusu, böyük dövlət xadimi Heydər Əliyevin YAP-ı yaradarkən qarşıya qoyduğu məqsəd və vəzifələr, demək olar ki, bütünlüklə artıq yerinə yetirilib. Bunlar ölkəmizdə ictimai-siyasi sabitliyin bərpa olunması, dövlətçiliyimizin möhkəmləndirilməsi, milli maraqlarımızı beynəlxalq münasibətlər sistemində müdafiə edə bilən xarici siyasət strategiyasının formalaşdırılması, milli rəqabətqabiliyyətli iqtisadiyyatın yaradılması, müstəqil siyasətin həyata keçirilməsi və ən əsası, ərazi bütövlüyümüzün bərpa olunması ilə bağlı olan prinsiplər idi. Azərbaycan Prezidenti, partiyamızın Sədri cənab İlham Əliyev 44 günlük Vətən müharibəsində əldə etdiyi tarixi zəfərlə Azərbaycan xalqının, eyni zamanda, Yeni Azərbaycan Partiyasının ən mürəkkəb və ən çətin, ancaq həm də ən ali məqsədini reallaşdırmış oldu. Azərbaycan möhtəşəm qələbə qazanaraq həm tarixi ədalətin, həm də ərazi bütövlüyünün bərpasına nail oldu. Şübhəsiz, Azərbaycanın əldə etdiyi tarixi zəfəri şərtləndirən bir sıra mühüm əhəmiyyətli amillər var ki, onların da başında hər şeydən əvvəl lider amili gəlir. Tarixi təcrübə və bugünkü ən yeni reallıqlar bir daha təsdiq edir ki, qələbəni yalnız güclü iradəyə sahib, qətiyyətli, cəsur qərarlar qəbul edən, milli maraqları hər şeydən üstün tutmağı və həm də onu qorumağı bacaran liderlər qazana bilirlər.

44 günlük Vətən müharibəsi tarixində Azərbaycan xalqı öz liderində bütün bu keyfiyyətləri bir daha gördü. Ancaq bunu təkcə Azərbaycan xalqı deyil, dost da, düşmən də, bütün dünya da gördü. Azərbaycan xalqı öz mübarizəsi ilə işğala məruz qalan, haqqı əlindən alınan xalqlara bir örnək oldu, bütün dünyaya ədaləti, beynəlxalq hüququ necə bərpa etməyi göstərdi. Ancaq bunun üçün milli gücün məqsədyönlü şəkildə səfərbər olması şərti də var ki, bu da yenə əsas etibarilə lider amili ilə bağlıdır. İlham Əliyevin sədaqətli silahdaşı ölkənin Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın mərdliyi, vətənpərvərliyi nəticəsində ölkə iqtisadiyyatının dinamik inkişafında xüsusi rolu qələbələrimizə öz töhfəsini vermişdir. Beləliklə də, istər xalqımızın, istərsə də Yeni Azərbaycan Partiyasının həyatında bir tarixi mərhələ geridə qaldı. Hazırda isə əldə etdiyimiz tarixi qələbəmiz yeni reallıqlar yaradıb və Yeni Azərbaycan Partiyası da elə bu reallıqlardan çıxış edərək, özünün yeni fəaliyyət proqramını müəyyənləşdirərək yoluna davam etməkdədir. Hər şeydən əvvəl gənclərin müharibədən əvvəl və sonra vətənpərvərlik ruhunda tərbiyələnməsi, elm və təhsilə maraq göstərməsi, ölkə Prezidentinə inamı, gənclərin YAP-na könüllü olaraq kütləvi üzv sıralarına daxil olmaları sosial-iqtisadi inkişafa və Vətən müharibəsində qələbələrimizə öz töhfələrini vermişlər.

Beləliklə, həm Yeni Azərbaycan Partiyasının fəaliyyətində, həm də ölkəmizin gələcək inkişafı baxımından yeni mərhələnin əsası qoyulmuş oldu. Əminliklə söyləmək olar ki, ümumxalq partiyası olan YAP bundan sonra da qarşısında duran strateji əhəmiyyətli vəzifələri uğurla yerinə yetirməklə ölkəmizin dayanıqlı və dinamik inkişafına müstəsna töhfə verəcək.

ANALİTİK+ŞƏRH

# “MK”: Paşinyan Bakının zirehli və dəmir yumruğuna tuş gəldi”

## Rusiya nəşri 16 noyabrda Ermənistanla Azərbaycan sərhədində baş verən olayların səbəblərini şərh edib





**Rusiyanın ”Moskvokvskiy Komsomolets” (”MK”) nəşri noyabrın 16-da Ermənistanla Azərbaycan sərhədində baş verən qarşıdurmadan yazıb. Nəşr qeyd edir ki, Azərbaycan Prezidenti İlham Əliyev məğlub edilmiş düşməninə qarşı yeni hərbi əməliyyatlar keçirmək fikrində deyildi və bunu planlaşdırmırdı. Baş verənlər isə, sadəcə, Bakı tərəfindən təlim-tərbiyə ölçüsü - Ermənistanın baş naziri Nikol Paşinyana ”əməli xəbərdarlıq” idi. Yəni ”şuluq etməyi yığışdır və yerinə dön!”.**

”MK” yazır ki, bunun nəticəsində erməni lideri belə bir şəffaf ”eyhamı” çox yaxşı anladı. Müdafiə nazirinin Bakını qıcıqlandıran Qarabağa səfərindən sonra o (nazir) dərhal kənara ”uçdu”.

Bir müddət əvvəl Putinin təşəbbüsü ilə Əliyevlə növbəti görüş raundundan imtina edən Paşinyan isə Azərbaycanla dialoqa hazır olduğunu bildirdi - hətta aşağı olan iki ölkənin təhlükəsizlik şuralarının katibləri səviyyəsində olsa belə.

### “İlham Əliyev bu düşməni sözəbaxan, bütün ambisiyalarını kənara atan kiçik partnyora çevirmək istəyir”

”MK” yazır ki, Azərbaycanın rəsmi nümayəndəsi Yaşar Əliyev BMT-nin Təhlükəsizlik Şurasındakı çıxışı zamanı bəyan etdi ki, rəsmi Bakının hədəfi Ermənistanla barış və sülh şəraitində yaşamaqdan ibarətdir və iki ölkə arasındakı münasibətlərin normallaşdırılmasına alternativ yoxdur.

Rusiya nəşri vurğulayır ki, rəsmi Bakı həqiqətən də Ermənistanla münasibətlərini normallaşdırmaq istəyindədir. Lakin hər şey məhz ”normallaşdırmaq” məsələsindəki konkret şərtlərə söykənir: ”Azərbaycan üçün özünün ənənəvi düşməni üzərindəki qələbəsi yetərli deyil. İlham Əliyev bu düşməni sözəbaxan, bütün ambisiyalarını kənara atan, psixoloji sındırılan və sakit, kiçik partnyora çevirmək istəyir. Müvafiq strategiyanın həlledici elementi Ermənistanın Bakı üçün komfort tranzit əraziyə çevirməkdən ibarətdir. İki ölkənin coğrafi əsasları bəlli olduğu kimi bir-birini bloklayır. Ermənistan Azərbaycanın öz ərazisi olan Naxçıvan Muxtar Respublikasının arasında yerləşir və buna ”təbii maneə” törədir. Azərbaycanın Ermənistan üzərindən keçən birbaşa hava rabitəsi blokadası isə artıq yarılıb. İndi Bakı öz praktikasında bunu quru yolu marşrutunda da həyata keçirmək istəyir: bunun üçün faktiki dəhliz tələb edir. Formal olaraq yolun bu şəbəkəsi Ermənistanın ərazisi kimi qalacaq, ancaq reallıqda orada Azərbaycan gücləri dayanacaq”.

### “İrəvan bu tələbin həyata keçiriləcəyini özü üçün alçaldıcı və suverenliyinə təhqir hesab edir...”

”MK” həmçinin yazır ki, Bakının nəzərincə həmin tələb yumşaqdır: ”Yəni sərnişinlərin və yüklərin təhlükəsizliyi başqa necə mühafizə ilə təmin oluna bilər! Lakin İrəvan bu tələbin həyata keçiriləcəyini özü üçün alçaldıcı və suverenliyinə təhqir hesab edir...”

Qəzet qeyd edir ki, analoji təşəbbüs Ermənistan üçün nəzərdə tutulmur və buna görə də İrəvan fərqli mövqe göstərir. Nəşr Gorus-Qafan yolundakı Azərbaycan postlarından, gömrük məntəqələrindən yazır və









Ermənistanın Zəngəzurdakı alternativ yollarının keçilməzliyinə işarə edir.

### “Bakı və Ankara alyansı Ermənistanı nəqliyyat infrastrukturu elementindəki iqtisadi satellit rolunda görür”

”Bu kimi təzadlar əlavə detallar, hətta texniki məsələlər kimi görünə bilər. Lakin belə ”texniki detallar” arxasında ümumi mənzərə dayanır. Azərbaycan ”məğlub olan acısını çəkməlidir” prinsipi ilə fəaliyyət göstərir və Ermənistanı müxtəlif vasitələrlə regiondakı yeni quruluşa təslim olmağa vadar edir”, yazan ”MK” sonda onu da vurğulayır ki, bu məsələdə Bakı və Ankara alyansı Ermənistanı nəqliyyat infrastrukturu elementindəki iqtisadi satellit rolunda görür.

”Kapitulyasiyanın şətrləri ilə de-fakto razılaşan baş nazir Paşinyan praktikada çılğınlıq nümayiş etdirir. Belə çılğınlıqlardan biri isə baş verdi - baş verdi və dərhal Bakının zirehli, dəmir yumruğuna tuş gəldi”, Rusiyanın ”Mokskovskiy Komsomolets” qəzeti analitik şərhində yazıb.

*Rövşən RƏSULOV*

TƏRS BAXIŞ

# Laborant Əli niyə coşur?

**Əbəs deyil ki, artıq VİP-dən istefa vermiş Əliyar Şirməmmədov bu gün Əli Əliyevi kobud adam, diktator və avtoritar idarəçi adlandırır.**

Bu gün özünü partiya lideri kimi təqdim edən Əli Əliyevin, əslində, siyasi təşkilatın adına uyğun fəaliyyət göstərməməsi göz önündədir. Hətta daha dəqiq desək, Əli Əliyevin sədri olduğu partiyasındakı "vətəndaş" ifadəsinin ona aidiyyatının olmadığını artıq əminliklə söyləmək mümkündür. Bizlər uzun illərdir siyasi meydanda kimin-kim olduğunu yaxşı bilir və xatırlayırıq. Bu, həmin Əli Əliyevdir ki, heç bir intellektual, dürüstlük, siyasi qabiliyyət səviyyəsinə malik olmayan fərd kimi daim parçalayıcı fəaliyyəti ilə yadda qalıb. Bu gün isə özünü "VİP sədri" kimi təqdim edən Əli Əliyev vaxtilə AMİP-də ona etibar olunmuş idarəçiliyə qarşı xəyanət etdi, nəticədə oradan qovuldu. Sonradan isə özünə "partiya" yaradaraq ölkənin siyasi gündəminə zorla, özünü sırımaqla daxil oldu.

Lakin o da bəllidir ki, əgər bir adam xəyanət edibsə, o, yenidən həmin xəyanəti təkrar edə bilər, çünki buna alışıq olur. Məsələn, təşkilatı daxilində onunla birlikdə uzun illər çiyin-çiyinə dayanmış, fəaliyyət göstərmiş sədr müavini, qurumun Siyasi Şurasının üzvü Əliyar Şirməmmədova qarşı davranışlarında olduğu kimi. Əbəs deyil ki, artıq VİP-dən istefa vermiş Əliyar Şirməmmədov bu gün Əli Əliyevi kobud adam, diktator və avtoritar idarəçi adlandırır.

b.e.n., ass. Əliyev Ə.N.

| Qısa məlumat | | |
|---|---|---|
| 1 | Ad, soyad, ata adı | Əliyev Əli Nadir oğlu |
| 2 | İxtisas | Provizor |
| 3 | Vəzifə | Assistent |
| 4 | Kafedra | Biokimya kafedrası |

Təhsili

| № | Təhsil müddəti | Ixtisası | Təhsil müəssisəsinin adı | Təhsil müəssisəsinin ünvanı |
|---|---|---|---|---|
| 1 | 1986-1991 | provizor | Azərbaycan Tibb Universiteti, əczaçılıq fakültəsi | Bakı şəhəri |



**Əli Əliyev kimi siyasət həvəskarı bir müddət əvvəl Şanlı Qələbəmizi kölgə altında qoymağa cəhdlər göstərən ünsürlərdəndir**

Əgər biz bu məsələdə Əli Əliyevin digər tərəflərini də analiz edərək, onun haqqında nəticələrə gəlməliyik. Çünki biz, onun siyasi fəaliyyətində daha böyük xəyanətinin - dövlətə, xalqa, dövlətçilik maraqlarına qarşı aşkar münasibətlərini sadalaya bilərik. Biz xüsusilə unutmamalıyıq ki, Əli Əliyev kimi siyasət həvəskarı bir müddət əvvəl Şanlı Qələbəmizi kölgə altında qoymağa cəhdlər göstərən ünsürlərdəndir. Bu faktın özü bilavasitə düşmən dəyirmanına su tökmək deyilmi? Bu fakt isbat etmədimi ki, Əli Əliyev öz yöndəmsiz, məzmunsuz və məntiqsiz ifadələri ilə erməni maraqlarına xidmət göstərib? Məncə, bundan artıq sübuta, təsdiqə də heç bir ehtiyac qalmır!

Artıq Əli Əliyevin qaragüruhçuluğu, partiyadaxili diktatorluğu tarixin arxivinə atılmış lazımsız bir əşya xarakteri daşımaqdadır. Xatirinizdədirsə, pandemiya ilə mübarizəyə başlayan ilk vaxtlarda da "VİP" sədri özünü dağa-daşa vurmaqla isterik davranışları ilə gündəmdə qalmağı düşünürdü. Amma nə oldu? Ölkədə pandemiya ilə mübarizədə kifayət qədər uğurlar əldə olundu və ümumilikdə ümumbəşəri bəlaya çevrilən koronavirusun vurduğu fəsadlara görə ağlına gələni danışdı. Lakin bu oyunbazlıqları da nəticəsiz qaldı.

İndi isə yenidən VİP daxilində odalov püskürən laborant Əlinin yenidən isterik səhnələrinin tamaşaçılarına çevrildik. Belə ki, əsassız iddiaları ilə normal düşüncəli insanlar içində yaşamağın mümkünlüyünü anladıqca, o, daha da aqressivləşir, hətta partiyadaşlarına qarşı diktatorluq münasibətlərini daha da artırır. Amma əlbəttə ki, bütün bunlar əbəs çabalamalardır.

*Rövşən RƏSULOV*

## "Partiya sədri özünü hökmdar kimi aparmalı deyil"



"Partiya sədri bir az başıaşağı olmalı və o, populyarlaşdıqca bir az daha təvazökar olmalıdır. Bunlarla yanaşı gərək, fikirlərinə, sözlərinə diqqət yetirsin". Bu sözləri SİA-ya açıqlamasında Milli Məclisin deputatı, Milli Cəbhə Partiyasının sədri Razi Nurullayev deyib.

Onun sözlərinə görə, partiya sədri özünü mədəni, sivil formada aparmalıdır: "Çünki partiya sədri həmçinin öz partiyasının üzvləri ilə bərabər ünsiyyətdə olduğu insanların qarşısında da məsuliyyət daşıyır. Təəssüflər olsun ki, Əli Əliyev etik davranışlara, mədəni elementlərə əməl etmək istəmir. Əli Əliyev kim gəldi onun haqqında təhqiramiz sözlər işlədir. Emosiyalara qapılaraq bəzən həmin insanların şəxsiyyətini də hədəf alır. Hesab edirəm ki, bu cür davranışlar yolverilməzdir. Kim olursa-olsun kimliyindən, vəzifəsindən asılı olmayaraq heç kimin şəxsiyyətini alçaltmaq olmaz. Faktsız, sübutsuz kimisə hədəfə alıb onu təhqir etmək düzgün yanaşma deyil. Əlavə olaraq partiya sədri partiyanı "MMC" kimi idarəetməməlidir".

Razi Nurullayev həmçinin qeyd edib ki, biz müxalifət tərəf olaraq başqalarını düzgün idarə etməməkdə günahlandırırıq: "Amma özümüzdə bu səhvləri görə bilmirik. Bizim sıramızda olan partiyalar tənqidə qarşı dözümlü deyil. Əli Əliyevin partiyasındakı qopmalar onun sübutudur ki, partiyanı mədəni formada, sivil qaydalarla idarə etmək lazımdır. Amma görünür ki, Əli Əliyev partiyasının içərisində dözümsüzlük mühiti yaradıb. Məsələn bir partiya sədri çıxış edəndə bəzən çox böyük məsələlərə toxunur. Bəzi məsələrlə partiyasının mövqeyini açıqlayır. Əli Əliyev isə danışarkən bütün məsələrə fikir bildirirdi. Mən inanmıram ki, həmin məsələləri partiya üzvləri ilə müzakirə edir və onların razılığını alır. Əslində partiyanın üzvləri ilə bu və digər məsələləri müzakirə edərək razılaşmaq lazımdır. Partiya sədri özünü hökmdar kimi aparmalı deyil. Bu cür insanlar cəmiyyətə düzgün mesajlar ötürmür. Bu baxımdan Əli Əliyev bundan sonrakı məsələlərə qarşı daha diqqətli davranmalı, özünü partiya sədrinə uyğun şəkildə aparmalı, ifadələrinə fikir verməlidir".

*Arzu Qurbanzadə*

# "Azərbaycanla növbəti qarşıdurma erməni dövlətçiliyinin varlığını sual altında qoyacaq"

## POLİTOLOQ MÜNASİBƏT BİLDİRDİ



**"Ermənistanın son günlər Azərbaycanla sərhədlərində baş verən hadisələr göstərir ki, bu ölkənin bəlli məlum dairələri keçən ilki məğlubiyyətin əvəzini çıxmaq, qisas almaq, revanş götürmək fikirlərindən imtina etməyiblər". Bunu SİA-ya açıqlamasında politoloq Elşən Manafov deyib.**

Onun sözlərinə görə, Ermənistanın mövcud durumu, iqtisadiyyatının vəziyyəti, onun maliyyə imkanları, nəhayət, bu ölkənin ordusunda keçən ilki məğlubiyyətin doğurmuş olduğu reallıqlar nəzərə alınarsa, Ermənistanın Azərbaycanı hərblə hədələməsinin ona neçəyə başa gələcəyini təsəvvür etmək çətin deyil: "Azərbaycanla növbəti qarşıdurma erməni dövlətçiliyinin öz varlığını sual altında qoyacağı şəksizdir. Belə olan halda Ermənistan tərəfinin atəşkəs şərtlərini pozaraq Azərbaycan üzərinə yeriməsi siyasi avantüra təsiri bağışlayır, siyasətdə reallıqların nəzərə alınmaması, siyasətin illüziya və ya iilğımlar üzərində həyata keçirilməsi cəhdləri nəticələri ağır ola biləcək vəziyyətin yaranmasına gətirib çıxara bilər. Ermənistanın siyasi elitası da bütün bunları bilməmiş deyil. Deməli, Qərbdəki məlum və bəlli dairələrin sifarişi ilə Azərbaycanı təxribata çəkmək, onu hərbi əməliyyatları Ermənistan ərazisinə keçirməyə sövq etməklə bizləri "rus NATO-su" ilə üzbəüz qoymaq, bölgədə Rusiya Azərbaycan, Rusiya Türkiyə qarşıdurmasının yaranmasına nail olmaqla KTMT-ni bölgədəki hərbi əməliyyatlara cəlb etmək və bununla da bölgədəki geosiyasi reallıqların Qərbdəki məlum dairələrin maraqlarına uyğun şəkildə dəyişməkdir".

Elşən Manafov bildirdi ki, 44 günlük savaşdan sonra bölgə ilə bağlı yeni geosiyasi reallıqlar Rusiyanı qane etsə də Qərbdəki bəlli dairələri məmnun salmayıb: "Azərbaycanı təxribata çəkməklə birincisi Moskva razılaşmalarının həyata keçirilməsinin qarşısını almaq, Rusiyanın bölgəyə artmaqda olan təsirini azaltmaq və ya minimuma endirmək, ATƏT-in Minsk Qrupunun fəaliyyətinə ikinci nəfəs vermək, ikincisi Qarabağın statusu ətrafında danışıqları bərpa etmək və deməli perspektivdə Azərbaycan tərəfinə təsir imkanlarını saxlamaq, üçüncüsü Rusiya-Azərbaycan-Türkiyə üç tərəfli əməkdaşlığına zərbə vurmaq, regionla bağlı 3+3 formatlı məlum geosiyasi layihənin gələcəkdə reallaşmasının qarşısını almaq kimi məkrli planlar. Maraqlıdır ki, bu cəhdlərə qarşı Moskva özünün Ermənistandakı müttəfiqləri, yəni Paşinyana və deməli həm də onun Qərbdəki havadarlarına qarşı bilavasitə dəstəklədiyi müxalif siyasi qüvvələrlə birgə çıxır. Bu cəhdlərin baş tutmayacağı isə bəllidir, əvvəla bu cəhdlər siyasi avantüradan başqa bir şey deyil, digər tərəfdən Rusiyanın bölgə ilə bağlı maraqları onun Azərbaycan və Türkiyə ilə əməkdaşlığının davam etdirilməsini labüd edir".

*Gülyana*



## "...Ermənistan Zəngəzuru da itirə bilər"

Müharibə başlayacağı təqdirdə Ermənistan Zəngəzuru da itirə bilər. SİA bildirir ki, bunu Trend-ə rusiyalı politoloq, teleaparıcı və ictimai xadim Maksim Şevçenko Ermənistanın Azərbaycanla sərhəddə təxribatçı addımlarını şərh edərkən deyib.

"Bu qarşıdurmalar 2020-ci il müharibəsindən sonrakı siyasi prosesin başa çatmamasının nəticəsidir. Mən əminəm ki, erməni cəmiyyətinin daxilində revanş arzusu, məğlubiyyət acısı və gəlib onları xilas edəcək xarici müttəfiq arzusu var. Nasist Almaniyası məğlub olmağa başlayanda, artıq 1943-cü ildə onların müqəddəratı həll olunmuşdu. Amma yenə də onlar sonadək ümid edirdi ki, Stalinlə Ruzveltin arası dəyəcək, hansısa möcüzə silah peyda olacaq. Təxribatçılara müqavimət göstəmək lazımdır, amma eyni zamanda sülh prosesi yolu ilə addımlamaq, o cümlədən erməni cəmiyyətinə bu yolu getməkdə kömək etmək də lazımdır", - deyə M.Şevçenko bildirib. O hesab edir ki, Ermənistan müharibə başlayacağı təqdirdə çox şey itirə bilər.

"Azərbaycan bu iki gündə açıq şəkildə göstərdi ki, erməni tərəfinin "hay-küyü" Ermənistanın Zəngəzuru itirə biləcəyinə də gətirib çıxara bilər. Ermənistan hesab edir ki, Rusiya Azərbaycanın üzərinə gedəcək. Bu, sadəlövh hesabdır. Bu, həm də cinayətkar hesabdır, belə ki, Rusiyanı regiondakı maraqların daxilinə cəlb edir. Rusiya müdaxilə etməyəcək, Ermənistana görə döyüşməyəcək", - politoloq vurğulayıb.

Bundan başqa, M.Şevçenko Ermənistan tərəfinin guya Rusiya ilə Türkiyə arasında qarşıdurmanın qaçılmazlığı barədə bəyanatları da şərh edib.

"Erməni tərəfi daim deyir ki, Rusiya ilə Türkiyə arasında qarşıdurma qaçılmazdır. Mən bu cür hesab etmirəm. Biz tam normal əməkdaşlıq görürük. Biz prezident Putinlə prezident Ərdoğanın görüşlərini, telefon danışıqlarını görürük. Rusiya Türkiyədə böyük atom elektrik stansiyası tikir, Türkiyəyə Rusiyanın ən müasir silah sistemlərinin satışı ilə bağlı danışıqlar aparılır. Ona görə də bunlar təhlükəli illüziyalardır və bir neçə gün əvvəl Daşaltı kəndində qeydə alınmış terror-təxribat əməllərinə gətirib çıxara bilər. Siyasətdə illüziyadan təhlükəli heç nə yoxdur", - deyə o, fikrini tamamlayıb.

# Dmitri Solonnikov: “Moskva Yerevanın kimin notlarını çaldığını yaxşı bilir”

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

*Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə “Azərbaycan Respublikasının dünya birliyinə inteqrasiyası, region ölkələri və digər dövlətlərlə, beynəlxalq təşkilatlarla əməkdaşlığının inkişaf etdirilməsi” istiqaməti çərçivəsində hazırlanıb.*

## Rus strateq:

**“Ermənistanın hazırkı rəhbərliyi vəziyyəti sabitliyi pozmaq üçün Qərbin bu planına açıq şəkildə daxil edilib və Rusiya bunu yaxşı bilir”**



Ermənistan Soros Fondu tərəfindən hazırlanmış və keçmiş Sovet İttifaqının sərhədlərinin sabitliyini pozmağa yönəlmiş iri fəaliyyət planının həyata keçirilməsinin iştirakçılarından biridir. Bu fikirləri Rusiya Müasir Dövlət İnkişaf İnstitutunun direktoru, tanınmış siyasi strateq Dmitri Solonnikov Azərbaycanla Ermənistan arasında dünənki toqquşmaları “Caliber” analitik mərkəzinə şərh edərkən deyib.

Onun sözlərinə görə, Ermənistan rəhbərliyində Soros Fondunun xaricdən gələn direktivlərə ciddi əməl edən adamları var və onların işi Sorosun qrantları hesabına maliyyələşdirilir ki, bunun da həcmi respublikanın büdcə vəsaitlərini xeyli üstələyir.

“Ermənistanın hazırkı rəhbərliyi vəziyyəti sabitliyi pozmaq üçün bu plana açıq şəkildə daxil edilib və Rusiya bunu yaxşı bilir. Moskva hazırkı vəziyyəti ayıq-sayıq qiymətləndirir, Yerevanın verilən fəaliyyət ssenarisinə uyğun olaraq hansı rolu və kimin qeydlərinə uyğun oynadığını anlayır”- siyasi texnoloq deyir.

D.Solonnikovun fikrincə, Ermənistanın ardıcıl olaraq ssenarinin bütün bəndlərini yerinə yetirməsi faktını oxumaq asandır: “Özünüz mühakimə edin. Əvvəlcə İrəvanda Rusiya əleyhinə mitinqlər keçirildi, daha sonra Şuşa yaxınlığında nəzarət-buraxılış məntəqəsinə atılan qumbara ilə erməni tərəfinin təxribatı oldu, daha sonra münaqişənin qaynar mərhələsini açmaq və onu sürükləmək üçün Azərbaycanla sərhəddə təxribatlar başladı. Rusiya işə qarışdı. Ancaq gördüyümüz kimi, Moskva İrəvana hərbi yardım göstərmədi və KTMT vasitəsilə dəstək vermədi. Beləliklə, Rusiya göstərdi ki, nə indi, nə də gələcəkdə Soros Fondunun marionetkalarına tapşırıqlarını yerinə yetirməkdə kömək etmək niyyətində deyil”.













Ekspert sözlərinə görə, bu arada Ermənistan-Azərbaycan sərhədində münaqişənin yeni qaynar fazasının qızışdırılması erməni xalqının, bütün Cənubi Qafqazın maraqlarına uyğun deyil: “Fəaliyyət planı xaricdə, dediyim kimi, icad edilib, razılaşdırılıb və yazılıb və Ermənistan rəhbərliyi tərəfindən həyata keçirilir. Təsadüfi deyil ki, döyüşləri dayandırmaq üçün Ermənistan-Azərbaycan sərhədində yaranmış vəziyyətə Rusiyanın müdafiə naziri Sergey Şoyqunun şəxsən müdaxiləsi olub. Rusiya erməni təxribatçıları vasitəsilə onun sərhədləri boyunca və ya yaxınlığında gərginliyin artması ssenarisini dəstəkləməyəcək. Rusiya Sorosun məqsəd və məqsədlərinə deyil, öz maraqlarına əsaslanan siyasət aparır”.

Təxribatlara son qoymaq üçün Rusiyanın Ermənistana, xüsusən də iqtisadi, siyasi təzyiqlərə məruz qalmasından danışan siyasi strateq qeyd edib ki, Kreml beynəlxalq qətnamələrdə üzərinə götürdüyü bir sıra öhdəlikləri və protokolları Yerevanın yerinə yetirməsinə çalışacaq: “Beynəlxalq təşkilatları bura dəvət etməyin mənası yoxdur. BMT Baş Assambleyasının qətnamələri heç bir şey deyil, praktiki olaraq heç kim onları yerinə yetirmir. BMT Təhlükəsizlik Şurasının qətnamələri hələ ondan əvvəl Ermənistan tərəfindən yerinə yetirilmirdi. Əgər ATƏT-dən danışırıqsa, onun belə münaqişələrdə iştirakı müsbətdən daha çox mənfidir. Qumbaraatanların ATƏT-in işarələrindən istifadə edərək avtomobillərdə daşındığı zaman kadrlar var, onlar dronlarla lentə alınıb. Ona görə də proses üçtərəfli formatda davam etdirilməlidir- İrəvan-Moskva-Bakı. Üç liderin onlayn görüşü noyabrın əvvəlinə nəzərdə tutulmuşdu, lakin Ermənistanın dialoqa hazır olmaması səbəbindən görüş təxirə salınıb. Buna baxmayaraq, ümid edək ki, bu, bu hadisələrdən sonra görüş baş tutacaq. Ola bilsin ki, iqtisadi və siyasi arqumentlərdən də istifadə edərək Ermənistanı konstruktiv dialoqa inandırmaq lazımdır. İndi yalnız bu barədə danışa bilərik ”

D.Solonnikov daha sonra qeyd edib ki, Rusiya hələ ki nə Cənubi Qafqazda, nə də Ermənistanla vəziyyətin eyni olduğu Ukraynanın şərqində pproblemləri edə bilməyib. “Anlamaq lazımdır ki, Rusiyanın qərb qonşuları ilə sərhədlərinin bütün perimetri boyunca təxribatların aktiv mərhələsi başlayır”, - deyə rusiyalı siyasi strateq yekunlaşdırıb.

***Tərcümə - Elçin Bayramlı***

**Alman alimləri COVİD-19-la effektiv mübarizə aparan təbii giləmeyvənin adını elan ediblər. SİA Medicina.az-a istinadən xəbər verir ki, qara quşarmudu və şirəsinin COVİD-19 virusunu orqanizmdə 97 faiz öldürdüyü məlum olub.**

Tədqiqatlar Ulma Molekulyar Virusologiya Universitetində aparılıb. Nəticələrə görə, qara quşarmudunun şirəsi boğazda və bədəndə infeksiyanın aktivliyini azaldır, virusu parçalayır. Eyni təsiri nar şirəsi də göstərir. Alimlərin fikrincə, bu içkilərdə turş mühit və bitki polifenolları var, onlar virusun üst təbəqəsini dağıdır.



# Koronaya qarşı təbii qida tapıldı?




# Ronaldonun sevgilisindən Messinin paylaşımına maraqlı şərh

"Mançester Yunayted"in hücumçusu Kriştiano Ronaldonun sevgilisi Corcina Rodriqes etdiyi hərəkətlə gündəm olub. Belə ki, model PSJ-nin hücumçusu Lionel Messinin "İnstaqram" paylaşdığı şəklin şərh bölümünə iki ürək və alov emojilərini qeyd edib. Onun bu şərhinə xeyli sayda insan münasibət bildirib. Bundan sonra Corcina həmin şəxslərə isə bu şərhi yazıb: "Ronaldoya söyləməyin". Ronaldonun sevgilisinin bu şərhindən sonra Messinin həyat yoldaşı Antonela Rokkuzzonun qısa videosunu paylaşması diqqətdən qaçmayıb.

# Həkim məsləhəti:

## Balqabaq ürək üçün ən faydalı payız tərəvəzidir

Ürək-damar sistemi xəstəliklərindən əziyyət çəkənlər mütləq balqabaq yeməlidir. Alimlər sübut edir ki, balqabaq ürək və damarlar üçün ən faydalı payız tərəvəzidir. Balqabaq ürəyin funksiyalarını yaxşılaşdırır və ürəyi möhkəmləndirir, kaliumun sayəsində orqanizmi artıq mayedən azad edir. Balqabaq aterosklerozdan müdafiə edən ən faydalı tərəvəz sayılır. Balqabağın əti və tumları damarların divarlarının vəziyyətini yaxşılaşdırır, onların elastikliyini artırır.

Həkimlər də qeyd edirlər ki, mis və dəmirlə zəngin olan baqlqabaq qanın tərkibində də çox müsbət təsir edir. Qeyd edək ki, pektin və qidalı liflər sayəsində bu tərəvəz orqanizmdən ziyanlı maddələrin, artıq xolesterinin xaric edilməsini stimullaşdırır. Balqabaq qaraciyər üçün ən faydalı tərəvəzlərdən biridir.

Tərəvəz A vitamini ilə də zəngindir. Bu vitamin ən güclü antioksidantlardan biridir, orqanizmi müxtəlif xəstəliklərdən qoruyur, dərinin vəziyyətini yaxşılaşdırır, immuniteti və görməni möhkəmləndirir. Mütəxəssislər hipertoniya, ateroskleroz, qan dövranı çatışmazlığından əziyyət çəkənlərə mütləq balqabaq istehlak etməyi tövsiyə edirlər.





# MÖHTƏŞƏM DƏMLƏMƏ

## Orqanizmi qurdlardan təmizləyən, qaraciyəri, ödü sağaldan



**Həqiqətən bu resept möhtəşəm bir reseptdir, mən insanların bu reseptdən istifadə edib necə bir şəfa tapdıqlarını gördükdən sonra belə bir başlıq qoydum. Əvvəlcə resepti, sonra faydalarını yazım.**

**HAZIRLANMASI** - Deməli, 2 orta xörək qaşığı (böyük qaşıq olmasın) boymadərən, 2 orta xörək qaşığı (böyük xörək qaşığı olmasın) dağtərxunu götürürsünüz, 1 litr soyuq suya qarışdırıb yavaş-yavaş isidib 2 dəqiqə qaynadın, sonra 2 saat gözləyib yenidən isidib adi çay dəmləyən kimi 10 dəqiqə dəmləyin, oddan götürdükdən sonra 2 xörək qaşığı bal qarışdırın, soyuyandan sonra bu bir litri gün ərzində için. Həm yeməkdən əvvəl, həm də yeməkdən sonra içə bilərsiniz. Müalicə müddəti 1 aydır. Təkrar içmək istəsəniz 15 gündən sonra içə bilərsiniz.

**FAYDALARI** - Mədə bağırsaq yaraları, (qastrit, kolit) Mədə, bağırsaq, mədəaltı vəz xərçəngi, bağırsağın xora xəstəliyi,(qeyri spesifik xoralı kolit) maraqlıdır ki, tərkibində bal olmasına baxmayaraq şəkər xəstələrinə olduqca əla təsir edir (amma mən ehtiyat edib şəkər xəstələrinə balı 1 xörək qaşığı qarışdırmağı məsləhət görürəm), bağırsaq qurdları (askarid, enterobioz, lyambliyoz), böyrəyin sidik kisəsinin iltihabi xəstəlikləri (tez-tez sidiyə getmələrdə), ümumi zəiflikdə (xatırladım ki, çay orqanizmi çox gümrahlaşdırır, müxtəlf mənşəli köpmələrdə, qaraciyər fermentələrinin (ALT, AST, Xolesterin, Bilrubin yüksəkliyində və sair), öd qatılığında (ağızın acı olması) və revmmatizmlərdə bu çayın içilməsi olduqca faydalıdır. Çayın heç bir ziyanlı tərəfləri yoxdur, sadəcə istifadə zamanı fərdi olaraq kimlərəsə əlavə yan təsirləri və ya allergiya olarsa qəbulu dayandırmaq lazımdır.

Uşaqlara verən zaman 5 yaşdan aşağı uşaqlara vermək olmaz, əgər vermək istəsəniz hərəsindən 1 çay qaşığı 2 stəkan suda hazırlayıb 2 çay qaşığı bal qarışdıra bilərsiniz.

Fizulihuseynov.com

## ELAN

Aviasiya Akademiyasının Aerokosmik fakultəsinin II kurs tələbəsi Salahov Fuad Əli oğluna verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

## Başsağlığı

"Səs" Media Qrupunun rəhbəri Bəhruz Quliyev və kollektiv Media Qrupunun əməkdaşı Murad Adiloğluna nənəsi **Quliyeva Dilarə Zəbulla qızının** vəfatından kədərləndiyini bildirir, mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

**Allah rəhmət eləsin.**

*Baş redaktor:*
**Bəhruz Quliyev**

Ünvanımız:
**Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 66.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**
**"ƏLİNCƏ" AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.**
**QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR**
**Tel: 598-33-90**
**Faks: 493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**

**Tiraj: 4600**